# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Hikmət Hacıyev ABŞ-da mühüm görüşlər keçirib



2

# Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib



2

SƏS
№ 164 (7332)
11 sentyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# 2030-cu ildə dünyanı və ölkəmizi nə gözləyir?



7

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir



4

## Vahid müəllim forması: xeyri olar, zərəri yox



9

## "Formula-1" yarışları ölkəmiz üçün həm də böyük tanıtımdır



16

## Bizdən ötdü, kimə dəydi?



8

## Kor ol, kar ol, lal ol...



7

# Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib.***

***AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Yaradıcılıq Evində yaradılmış şərait barədə məlumat verdi.***



Bildirildi ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən kompleksin ərazisi 3 hektara yaxındır. Burada "suite" və "standart" tipli olmaqla ümumilikdə 43 otaq var. Kompleksdəki 174 yerlik konfrans zalında müxtəlif tədbirlərin, o cümlədən yaradıcılıq gecələrinin, yazıçılarla görüşlərin və digər mədəni tədbirlərin keçirilməsi mümkün olacaq. Burada kinoteatr, kitabxana, qapalı, həmçinin açıq havada restoranlar, kafe, fitnes zonası da fəaliyyət göstərəcək. Eyni zamanda, futbol, tennis və uşaq oyun meydançaları da istirahət edənlərin ixtiyarına veriləcək.





Qeyd edək ki, kompleksin bu cür müasir səviyyədə inşası ölkəmizdə yaradıcı insanların fəaliyyətinə göstərilən dövlət dəstəyinin növbəti təzahürü olmaqla, ilk növbədə, onların istirahətinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət nəticəsində yaradılmış şərait mədəniyyət və incəsənət sahəsində çalışanların fəaliyyətinin daha da canlanmasına səbəb olmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, onların əməyinə yüksək qiymətin verilməsi, sosial təminatlarının, mənzil-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Bundan başqa, istirahət və yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə yaradıcılıq ittifaqlarının, yaradıcılıq evlərinin və sanatoriyaların fəaliyyəti də dövlət səviyyəsində dəstəklənir.







# Çinli alim: Qadınların elm və tədqiqat sahəsindəki rolu artırılmalıdır



Bizim müzakirələrdə diqqət yetirməli olduğumuz mühüm məsələlərdən biri qadınların elm və tədqiqat sahəsindəki roludur. Təəssüf ki, qadın professorların sayı onların apardıqları tədqiqatların sayına nisbətdə hələ də azdır. Bu, hətta sosial elmlər sahəsində də müşahidə olunur. Çox vaxt qadınların gördüyü işlər sanki səhnə arxasında qalır və kifayət qədər görünmür.

AZƏRTAC xəbər verir ki, bu sözləri AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası çərçivəsində keçirilən "Yeni Asiya nizamının formalaşması" mövzulu yan tədbirdə Şərqi Çin Normal Universitetinin dosenti Xu Quanqmiao deyib.Forum iştirakçısı bu vəziyyətin dəyişməsi üçün müəyyən addımların atılmalı olduğuna diqqət çəkib: "İlk növbədə, qadın alimlərin işlərinin tanıdılması və ictimaiyyətə çatdırılması vacibdir. Burada sosial medianın gücü xüsusi qeyd olunmalıdır. Müxtəlif regionlarda sosial medianın təsirini araşdırmaqla biz qadınların tədqiqatlarının daha geniş auditoriyaya çatmasına şərait yarada bilərik. Eyni zamanda, gənclərin məsələlərə daha açıq perspektivdən baxması da bizə ümid verir. Bu yanaşma göstərir ki, qadınlar və gənclər birlikdə dünyanın gələcəyini formalaşdırmaqda mühüm rol oynaya bilərlər. Onlar sənayeləri, icmaları və müxtəlif sahələri öyrənərək yeni mövzulu dialoqların yaranmasına təkan verirlər", - deyə Xu Quanqmiao vurğulayıb. O qeyd edib ki, qadın alimlər üçün beynəlxalq elmi layihələrdə daha geniş iştirak imkanları yaradılmalıdır. "Onların məqalələri, araşdırmaları və nailiyyətləri üçün xüsusi dəstək platformaları formalaşdırılmalıdır. Təhsil imkanları daha da genişləndirilməli, gənc qadınların elmə gəlməsinə stimullar artırılmalıdır. Qadın sahibkarlar kimi qadın tədqiqatçılara da qrantlar, fondlar və təşviq mexanizmləri təqdim olunmalıdır. Ən əsası, mövcud stereotiplər aradan qaldırılmalı və qadınların liderlik imkanlarına daha açıq yanaşılmalıdır", - deyə dosent vurğulayıb.

# Hikmət Hacıyev ABŞ-da mühüm görüşlər keçirib



Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Konqresinin Nümayəndələr Palatasının (aşağı palata) Xarici Əlaqələr Komitəsinin sədri Brayan Mast və senator Stiv Dayns ilə görüşüb. Bu barədə SİA-ya Azərbaycanın Vaşinqtondakı səfirliyindən məlumat verilib.

Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və Amerika lideri Donald Tramp arasında avqustun 8-də Vaşinqtonda keçirilən sammitin strateji əhəmiyyəti, onun Azərbaycan-Amerika münasibətləri və regional sülh üçün müsbət nəticələri vurğulanıb. Azərbaycan Prezidentinin köməkçisi 907-ci maddənin ləğvinin vacibliyini vurğulayıb və parlamentariləri Azərbaycana səfərə dəvət edib.

Qeyd edək ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin üçtərəfli sammiti keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan AĞ Evin rəhbəri Donald Trampın vasitəçiliyi ilə 7 bənddən ibarət birgə bəyannamə imzalayıb, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişi paraflayıblar.

# Azərbaycan - Vatikan: dostluq və qarşılıqlı əməkdaşlıq

***Ölkəmiz müstəqil dövlət olaraq, dünyanın bir çox ölkələri ilə yanaşı, katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti ilə də diplomatik münasibətləri yüksək səviyyədə qurub. İkitərəfli münasibətlərin qurulmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il sentyabrın 26-da Vatikana rəsmi səfəri və Roma papası II İohann Pavellə görüşü bu əlaqələrin dərinləşməsində və möhkəmlənməsində mühüm rol oynayıb. 2002-ci ildə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin, ilk dəfə olaraq, Azərbaycana rəsmi səfəri zamanı Ulu Öndər Vatikan rəhbərini dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün bəşəriyyətin dostu və dünya vətəndaşı adlandırmışdı. II İohann Pavel isə Azərbaycanı Şərq ilə Qərbin arasında qapı olan bir məkan kimi xarakterizə etmişdir.***



Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin fevralında İtaliyaya rəsmi səfəri zamanı Vatikanda olması ölkələr arasında əlaqələrin daha da dərinləşməsinə töhfəsini vermiş oldu. 2008-ci ildə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Tarçiziyo Bertone Azərbaycana səfər etməsi bu əlaqələrin davamlığına dəlalət edir.

Mövcud əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri də müstəsnadır.

Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında anlaşma memorandumunun imzalanması





imzalanıb. Sənədin məqsədi elm və tədqiqat sahəsində birbaşa əməkdaşlıq və təcrübə mübadiləsini dəstəkləmək, həmçinin Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı sənədlərin araşdırılması, qorunması və rəqəmsallaşdırılmasını təmin etməkdir.

1475-ci ildə təsis edilən Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və nüfuzlu elmi mərkəzlərindən biri hesab olunur. Zəngin fonduna nadir əlyazmalar, inkunabullar, qədim xəritələr və müxtəlif dillərdə dəyərli nəşrlər daxil olan bu kitabxana yalnız ixtisaslaşmış tədqiqatçılar üçün açıqdır. Vatikan Apostol Arxivi isə 1612-ci ildə Papa V Pavelin fərmanı ilə kitabxanadan ayrılaraq müstəqil qurum kimi formalaşıb. Burada Müqəddəs Taxt-Tacın əsrlər boyu apardığı diplomatik yazışmalar, papaların fərmanları, inzibati qeydiyyatlar və digər rəsmi sənədlər qorunur. Arxiv bu gün dünya üzrə ən mühüm və tədqiqatçılar üçün qiymətli olan tarixi mənbələrdən biri kimi tanınır.

## “İLK MÜSƏLMAN ÖLKƏSİNİN SƏRGİSİ, MƏHZ AZƏRBAYCAN SƏRGİSİ İDİ”

Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın Müqəddəs San-Marçellinio və Pietro katakombaları əsaslı təmir və bərpa edilmişdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. Bu Vatikanda ilk müsəlman ölkəsinin sərgisi idi.

2016-cı il 2 oktyabr tarixində katoliklərin lideri Roma Papası Fransiskin Azərbaycana səfəri dinlərarası, məzhəblərarası toqquşmaların baş verdiyi bir dönəmdə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu, Vatikan başçısının Azərbaycana ikinci səfəri idi. Vatikan başçıları, adətən, əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Lakin Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayının, bir neçə yüz nəfər olmasına baxmayaraq, respublikamızda hökm sürən dini sabitlik Vatikan tərəfindən də maraqla qarşılanır. Prezident İlham Əliyev Roma Papasının Azərbaycana məlum səfərini tarixi hadisə adlandırmışdır. Dövlət başçısı bu səfərin Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd etmişdi: ”Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər, bir də onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək... 2012-ci ildə diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Vatikan muzeylərində Azərbaycan sərgisi keçirilib. İlk müsəlman ölkəsinin sərgisi, məhz Azərbaycan sərgisi idi”.

Papa Fransisk isə çıxışında ölkəmizdə hökm sürən tolerantlığa xüsusi toxunmuş, müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasındakı sabitliyi, ahəngdarlığı yüksək qiymətləndirmişdir. Din xadimləri ilə dövlət xadimlərinin görüşməsi sülhün, əmin-amanlığın bərqərar olmasına töhfədir. Bu səfər də beynəlxalq aləmə, bir daha göstərdi ki, Azərbaycan dini və etnik toleratanlıq nümunəsidir.

Müasir dövrümüzdə mövcud əlaqələr daha da dərinləşir. Dövlətimizin başçısı çıxışlarının birində Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlət başçısı mədəniyyət sahəsindəki əlaqələrimizin xüsusi əhəmiyyət daşıdığını və bu əməkdaşlığın ikitərəfli münasibətlərin yaxşı əlaməti olduğunu bildirib. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan-Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər. Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir

***Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib. Sentyabrın 10-da nümayəndə heyətinin ÇKP Muzeyinə ziyarəti təşkil olunub. Muzeylə tanışlıq zamanı Çinin və ÇKP-nin tarixi haqqında ətraflı məlumat verilib, ölkənin və partiyanın tarixini əks etdirən müxtəlif eksponatlar, qiymətli və nadir kolleksiya nümunələri, stendlərə baxış keçirilib. Daha sonra nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Sun Haiyan ilə görüşü keçirilib.***













Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri və sentyabrın 1-də Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə, sentyabrın 3-də isə yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirakının dövlətlərarası münasibətlərin inkişafı baxımından əhəmiyyəti xüsusi vurğulanıb.

Sun Haiyan hərtərəfli strateji tərəfdaşlığa malik iki ölkə arasında dostluq münasibətlərinin daha da gücləndiyini, müxtəlif sahələrdə, o cümlədən Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin dərinləşdiyini diqqətə çatdırıb. O, Asiya və Avropa arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Çinin Cənubi Qafqazda çox mühüm tərəfdaşı olduğunu bildirib.

İki ölkənin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq imkanlarının önəminə diqqəti cəlb edən Sun Haiyan elm, təhsil, mədəniyyət və digər sahələrdə işbirliyinin əhəmiyyətini də vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədov bildirib ki, iki dost ölkə arasında münasibətlərin dinamik inkişafı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi ilə bağlıdır. O, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əlaqələrin hər iki ölkənin milli maraqlarına cavab verdiyini vurğulayıb.

Hikmət Məmmədov Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində iki ölkənin hakim partiyaları arasında əlaqələrin mühüm rol oynadığını bildirərək 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri zamanı ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının önəminə diqqəti cəlb edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# "Nar" və "YAŞAT" Fondu "Bilik günü" münasibətilə şəhid övladlarını təbrik edib

**15 Sentyabr - Bilik Günü ərəfəsində "Nar" sosial tərəfdaşlıq çərçivəsində "YAŞAT" Fondunun təşkil etdiyi ənənəvi "Məktəbli ləvazimatları" layihəsinə qoşulub. Artıq beşinci dəfə gerçəkləşən bu təşəbbüs şəhid övladlarının yeni tədris ilinə sevinc və ruh yüksəkliyi ilə başlamasına dəstək olmağı hədəfləyir.**







Layihə çərçivəsində 1-11-ci siniflərdə təhsil alan 900-dən çox şəhidin 1500-dək övladına illik dərs ləvazimatlarından ibarət hədiyyə qutuları təqdim edilib. Respublikanın bütün bölgələrini əhatə edən bu dəstək məktəblilərin təhsil yolunda zəruri vasitələrlə təmin olunmasına və onların gələcəyə daha böyük ümidlərlə addımlamasına xidmət edir.

Qeyd edək ki, "Nar" davamlı olaraq Vətən uğrunda canından keçən qəhrəmanlarımızın ailələrinə və qazilərimizə dəstək göstərən layihələrə töhfə verir. Bu istiqamətdə reallaşdırılan sosial təşəbbüslər şirkətin korporativ sosial məsuliyyət strategiyasının əsas prioritetlərindəndir. Şəhid övladlarının təhsildə bərabər imkanlarla irəliləməsi, onların potensialının inkişafı və gələcəkdə cəmiyyətin fəal üzvü kimi formalaşmasına dəstək vermək mobil operator üçün xüsusi əhəmiyyət kəsb edir. "Nar"ın dəstəyi ilə gerçəkləşdirilən bütün sosial layihələr haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Dünyanın üç bucağında

## Qətər, Polşa və Nepal... hadisələri nədən xəbər verir?

***Bu gün dünyanın əksər ölkələri potensial müharibə, qarşıdurma, çaxnaşma, xaos, iç və dış savaş meydanıdır. Heç bir ölkə bütün bunlardan uzaq olduğunusöyləyə bilmir. Sanki, dünya yenidən qurulur, dövlətlər, dövlətlər birliyi yenidən tərtibə hazırlaşır. Kənar qüvvələri bir kənara qoyaq, dünya insanının da bəşəriyyəti məhv etmək həvəsi artıb. Planetimiz irili-xırdalı 400 savaşdan, münaqişə ocağından, top-tüfəng səsindən hər saniyə diksinir, eyni zamanda onu yaşatmaq missiyası olan "homo sapiens"lərin hər şeyin sonuna hazırlaşdıqlarından təəccüb və təəssüflənir. Dünyanın heç bir qitəsi, heç bir regionu sabit deyil, Yaxın Şərqdən, Cənubi Qafqazdan, Avropanın şərq hissəsindən, Cənub-şərqi Asiya regionundan, İran körfəzindən, Şimali Afrikadan, Karib dənizi hövzəsindən, Baltik dənizindən barıt və qan qoxusu gəlir.***



Alyaskada Tramp-Putin görüşündən sonra düşünmək olardı ki, Ukrayna müharibəsində aktiv faza passivləşəcək, ağır silahlar yüngüllərlə əvəz olunacaq, tarıma çəkilmiş əsəblər danışıqlar masasında soyuyacaq və nəhayət sülhə doğru uzanan əllər geri çevrilməyəcək. Amma gözlənilənlər baş vermədi, Putinin təyyarəsi Alyaskada olarkən Kiyev şəhəri ballistik raketlərin hücumundan bir daha sarsıldı. Ümidlər bir andaca puç oldu. Tramp-Putin görüşündə nələrin müzakirə edildiyindən, nələrdən danışıldığından heç də hamının xəbəri yoxdur. Amma bəlli olan budur ki, Trampın şərtlərini qəbul etməyin intihar olduğunu anlayan Putin nahara qalmadan birbaşa Rusiyaya qayıtdı.





Bu gün dünyanın daha 3 bölgəsində qaynar qazan asılıb, İsrail Qətərə, Rusiya Polşaya hücum edib. Nepallılar isə öz dövlətlərinə asi olublar, prezident və baş naziri hakimiyyətdən qovublar, onların oturduğu binaları yandırıblar, nazirləri linc ediblər. Bir sözlə Nepal bu gün hakimiyyətsizdir...

### İsrailin Qətərə hücumu

Paytaxt Dohaya zərbə endirilib. Zərbə Həmas rəhbərliyini hədəf alıb. Bu hücum İsrailin tarixdə Qətərə ilk zərbəsi olub. Qətər ABŞ-ın Yaxın Şərqdəki mühüm müttəfiqidir. Eyni zamanda, 10 ildən artıqdır ki, HƏMAS-ın siyasi rəhbərliyinə sığınacaq verir və Vaşinqtonla birlikdə Qəzzada müharibənin sülh yolu ilə həlli cəhdində vasitəçilik rolunu oynayır.

İsrail Müdafiə Qüvvələri oktyabrın 7-də İsrailə hücumlara görə birbaşa məsul olan Həmas rəhbərliyinə zərbələr endirdiyini bildirib. Əməliyyat İsrailin təhlükəsizlik və kəşfiyyat xidməti olan Şin Bet ilə birgə həyata keçirilib. İsrailin baş naziri Benyamin Netanyahu daha sonra Dohaya hücumu təsdiqləyərək bunu İsrailin "müstəqil əməliyyatı" adlandırıb. "Həmas terror təşkilatının liderlərinə qarşı bugünkü aksiya İsrail tərəfindən tamamilə müstəqil bir əməliyyat idi. İsrail bunu başlatdı, İsrail həyata keçirdi və İsrail bütün məsuliyyəti öz üzərinə götürür", - Netanyahu bildirib.

İsrail zərbə ilə bağlı həm Qətər, həm də ABŞ-ı xəbərdar edib. İsrailin Kanal 12-nin məlumatına görə, Tramp əməliyyata yaşıl işıq yandırıb. Qətər Xarici İşlər Nazirliyinin sözçüsü isə ölkəyə əvvəlcədən xəbərdarlıq edilmədiyini bildirib.

### ABŞ-ın cavabı

"Bu səhər Tramp administrasiyası ABŞ ordusundan İsrailin təəssüf ki, Qətərin paytaxtı Doha bölgəsində olan HƏMAS-a zərbə endirəcəyi xəbərini aldı. Sülh əldə etmək üçün bizimlə çox çalışan və cəsarətlə riskə girən suveren ölkə və ABŞ-ın yaxın müttəfiqi Qətəri bombalamaq nə İsrailin, nə də Amerikanın məqsədlərinə xidmət etmir", - Ağ Evin mətbuat katibi Karoline Levitt bildirib. Bununla belə, CNN-in qeyd etdiyi kimi, Ağ Evin mətbuat katibi "HƏMASı məhv etməyin" layiqli məqsəd olduğunu açıq şəkildə ifadə edib və İsrail ordusunun hərəkətlərini birbaşa pisləməklə kifayətlənib.

Levitt bildirib ki, prezident Tramp hücumdan sonra İsrailin baş naziri Benyamin Netanyahu, həmçinin Qətər əmiri Təmim Əl Tani və Qətərin baş naziri Məhəmməd Əl Tani ilə danışıb. "Prezident Tramp hesab edir ki, bu uğursuz hadisə sülh üçün bir fürsət ola bilər", deyib.

### Tətillərin nəticələri

Radikal Fələstin qruplaşması Qəzza zolağında HƏMAS liderinin oğlu Xəlil əl-Haya da daxil olmaqla, beş üzvünün öldürüldüyünü bildirib. HƏMAS liderlərinin taleyi hələ də məlum deyil. İsrail mediasının məlumatına görə, öldürülən Həmas liderləri arasında İsrailin 1997-ci ildə İordaniyada öldürməyə cəhd etdiyi hərəkatın xarici qanadının lideri Xalid Məşəl də var. "The Times of Israel" ərəb mediasına istinadən xəbər verir ki, vurulan HƏMAS qərargahında təşkilatın Qəzzadakı lideri Xəlil əl-Həya, HƏMAS-ın baş müzakirəçisi və Qəzzada atəşkəs danışıqlarının iştirakçısı olub. Eyni zamanda, Reuters-in Həmasdakı iki mənbəsi danışıqlar qrupunun üzvlərinin sağ qaldığını iddia edir.

Bundan başqa, təşkilatın İordan çayının qərb sahilindəki rəhbəri Zaher Cabarin və Həmas Şurasının (şurasının) rəhbəri Məhəmməd Dərviş də qərargahda olublar. HƏMAS siyasi bürosunun üzvü Suhail əl-Hindi Əl-Cəzirə telekanalına bildirib ki, Xəlil əl-Haya sağ qalıb, lakin oğlu Humam, ən yaxın köməkçilərindən biri və ehtimal ki, üç mühafizəçisi ölüb. O, bir neçə dəfə İsrailin hücumuna məruz qalan HƏMAS liderlərinin yaxşı olduğunu təkrarlayıb.

### Sülh təşəbbüslərinə zərbə?

Son 20 ildə Qətər dünyanın danışıqlar paytaxtı olub. Doha ukraynalı uşaqların vətənlərinə qayıtması, Amerika qoşunlarının Əfqanıstandan çıxarılması, Sudandakı üsyançılarla sülh razılaşması və təbii ki, atəşkəs və 2023-cü il oktyabrın 7-də Həmas tərəfindən tutulan bəzi girovların azad edilməsi üçün danışıqlar nöqtəsi olub. danışıqlar və vasitəçilik. Qətər hökuməti hücuma sərt cavab verib, lakin İsrail və HƏMAS arasında danışıqlarda vasitəçi roluna son qoyduğunu hələ rəsmən açıqlamayıb. 2025-ci ilin iyulunda Qətər bəziləri ölkə daxilində, digərləri isə ondan kənarda olmaqla 10 vasitəçilik prosesində iştirak edib. Konqo Demokratik Respublikası ilə Ruanda arasında sülh müqaviləsinə səbəb olan danışıqların təşəbbüskarı Qətər olub. Qətər girovların azad edilməsi və məhbusların dəyişdirilməsi məsələsində vasitəçiliyi ilə xüsusilə məşhur idi.

Qətər 7 oktyabr hücumundan sonra İsrail və HƏMAS arasında aparılan danışıqlarda əvvəldən iştirak edirdi. Dohanın vasitəçi olması ilə tərəflər müvəqqəti atəşkəsə razılaşıblar və 105 israilli girovu 240 fələstinli məhbusla dəyişdiriblər. İsrailin Dohaya hücumu artıq bir çox ərəb ölkələri, BMT, Fransa və Böyük Britaniya tərəfindən pislənib. Papa XIV Leo vəziyyəti "çox ciddi" adlandırıb.

### Polşaya hücum, yoxsa...?

Rusiya pilotsuz təyyarələri Polşanın hava məkanına daxil olub. Polşa hərbçiləri Rusiya pilotsuz təyyarələrinə qarşı silahlardan istifadə ediblər. Polşanın baş naziri Donald Tusk sentyabrın 10-na keçən gecə Rusiyanın pilotsuz təyyarələrinin ölkənin hava məkanını çoxsaylı pozuntuları ilə bağlı fövqəladə hökumət iclası çağırıb. Bu barədə X şəbəkəsində Polşa hökumətinin sözçüsü Adam Szlapka məlumat verib. Tusk hökumət üzvləri ilə görüşüb.

Bundan əvvəl Polşanın baş naziri əməliyyat komandirindən Rusiyanın döyüş pilotsuz təyyarələri ilə insidentlə bağlı hesabat alıb. Tusk həmçinin hərbçilərin uçan obyektlərə qarşı silah istifadə etdiyini bildirib. Rusiya pilotsuz təyyarələri ilə bağlı fövqəladə tədbirlər fonunda o, həmçinin bildirib ki, Polşa müdafiə naziri NATO üzvləri və liderləri ilə "sıx təmasdadır".

Xatırladaq ki, bundan əvvəl Ukrayna Hərbi Hava Qüvvələri sentyabrın 10-na keçən gecə Rusiya pilotsuz təyyarələrinin Polşanın hava məkanına daxil olması barədə məlumat vermişdi və bu, Polşada bir neçə hava limanının müvəqqəti bağlanmasına səbəb olub.

*Ardı Səh. 6*

Əvvəli Səh.5

ABŞ Rusiyanın pilotsuz təyyarələrinin Polşaya hücumuna cavab olaraq Trampı təcavüzkar ölkə Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etməyə çağırıb.

# Dünyanın üç bucağında

*Qətər, Polşa və Nepal... hadisələri nədən xəbər verir?*










## Polyaklar rusların hücumunu necə dəf etdilər?

İlkin məlumatlara görə, səkkiz-on rus pilotsuz təyyarəsi Polşanın hava məkanını pozub. Polşa hərbçiləri ölkənin hava məkanına daxil olan Rusiya pilotsuz təyyarələrinə qarşı hərbi əməliyyatın başa çatdığını elan edib. Polşa bu hücumu "təcavüz aktı" adlandırıb və müharibə zamanı ilk dəfə pilotsuz təyyarələrə atəş açıb. NATO müttəfiqləri Varşavanın köməyinə gəlib, daha ətraflı hekayədə. Polşa silahlı qüvvələrinin əməliyyat komandanlığı bəyan edib ki, ölkənin hava məkanını məhz Rusiya pilotsuz təyyarələri pozub. Baş nazir Donald Tusk gecə ərzində onların "çox" olduğunu söyləyib. Eyni zamanda, Ukraynanın monitorinq ictimaiyyəti qeyd edir ki, ona yaxın PUA Polşa ərazisinə uçub. "Birbaşa təhlükə yaradan pilotsuz təyyarələr vurulub. Mən NATO-nun baş katibi və müttəfiqlərimizlə daimi əlaqə saxlayıram", - Tusk X-də yazıb.

Daha sonra Polşa hərbçiləri NATO Hava Komandanlığına və Hollandiyaya F35 qırıcılarını səmalarında təhlükəsizliyi təmin etmək üçün yerləşdirdiklərinə görə təşəkkür edib. KİV-in məlumatına görə, NATO-nun Polşada yerləşdirdiyi "Patriot" hava hücumundan müdafiə radar sistemləri pilotsuz təyyarələri ilk aşkarlayanlar olsa da, onlara atəş açmayıb. Ümumilikdə gecə əməliyyatında aşağıdakılar iştirak edib: Polşanın F-16 qırıcıları, Hollandiyanın F-35-ləri, İtaliyanın AWACS havadan erkən xəbərdarlıq təyyarələri və NATO-nun birgə proqramı çərçivəsində idarə olunan tanker təyyarələri.

## Nəticələri nədir?

Gecə hücumu nəticəsində ölkədəki 4 hava limanının fəaliyyəti dayandırılıb və ölkənin əsas hava qovşağı olan Varşavadakı Şopen hava limanı hava məkanını bağladığını elan edib. Ukrayna ilə sərhəddə yerləşən üç rayonun, o cümlədən Varşavanın yerləşdiyi Mazowieckie Voyvodası vətəndaşlarına evdə qalmağa və vurulan pilotsuz təyyarələrə toxunmamağa çağırılıb. "Vətəndaşların təhlükəsizliyindən narahat olaraq, sizi hər hansı naməlum obyektə və ya onun dağıntılarına yaxınlaşmamağa, toxunmamağa və yerindən tərpətməməyə çağırırıq. Belə elementlər təhlükə yarada bilər və tərkibində təhlükəli materiallar ola bilər. Onlar müvafiq xidmətlər tərəfindən hərtərəfli yoxlanılmalıdır", - hərbçilər polyaklara müraciət edir.

Yerli medianın məlumatına görə, Rusiyaya məxsus pilotsuz təyyarələrdən biri Polşanın şərqində yaşayış binasını vuraraq dam örtüyünə və binadakı avtomobilə ziyan vurub. Sosial şəbəkələrdə tapıldığı iddia edilən başqa bir rus kamikadze dronunun fotosu da var. Lyublin Voyevodalığının polisi bildirib ki, onlar zədələnmiş dronu Polşanın şərqində, Belarusla sərhəddən təxminən 40 km aralıda yerləşən Çosnovka kəndində aşkar ediblər. "Biz müvafiq xidmətlərə məlumat vermişik. Prosedurlar davam edir", - məlumatda deyilir.

## "Həyəcan üçün əsas yoxdur"

Ümumiyyətlə, NATO Polşa hava məkanında Rusiya pilotsuz təyyarələri ilə insidenti hücum kimi qiymətləndirmir, Reuters mənbələrə istinadən yazır. Baxmayaraq ki, ilkin məlumatlar altı-on rus pilotsuz təyyarəsinin qəsdən müdaxiləsini göstərir. Polşanın baş naziri Tusk da "həyat həmişəki kimi davam edəcək" deyərək panikaya səbəb olmadığını deyir. Tusk yazıb: "Biz genişmiqyaslı təxribatla üzləşirik, müttəfiqlərlə məsləhətləşmələr davam edir".

Eyni zamanda Aİ diplomatiyasının rəhbəri Kaja Kallas bildirib ki, "pilotsuz təyyarələrin Polşaya təsadüfən deyil, məqsədli şəkildə uçduğuna dair əlamətlər var". Kallası Ukrayna prezidenti Vladimir Zelenski də dəstəkləyib. "Avropa üçün son dərəcə təhlükəli presedent. Bundan sonrakı addımların olub-olmayacağı tamamilə cavab tədbirlərinin koordinasiyası və gücündən asılıdır", - o deyib.

## ABŞ konqresmen: "Hərəkətə keçmək vaxtıdır"

ABŞ konqresmeni Co Vilson Rusiya pilotsuz təyyarələrinin Polşa səmasında peyda olmasından sonra ABŞ-ın qətiyyətli addım atmasının vacibliyini vurğulayıb. O, prezident Donald Trampı Kremlə qarşı sərt sanksiyalar tətbiq etməyə və Ukraynaya hərbi yardımı artırmağa çağırıb. Bu barədə o, çərşənbə günü, sentyabrın 10-da X sosial şəbəkəsində yazıb.

Siyasətçinin sözlərinə görə, NATO üzvü olan Polşanın hava məkanını pozan Rusiya pilotsuz təyyarələri ilə bağlı xəbərlər ciddi narahatlıq doğurur. Vilson Rusiyanın bu cür hərəkətlərinin alyansa qarşı birbaşa təcavüz olduğunu vurğulayaraq, onların geosiyasi kontekstdə təhlükəsini vurğulayıb. "Prezident Trampın Ağ Evdə prezident Nawrockini qəbul etməsindən bir həftə keçməmiş Rusiya İranın Şahed pilotsuz təyyarələri ilə NATO müttəfiqi Polşaya hücum edir. Bu, müharibə aktıdır və biz NATO müttəfiqlərinə hərbi cinayətkar Putinin azad və zəhmətkeş xalqlara qarşı davam edən əsassız təcavüzünə çevik reaksiyaya görə minnətdarıq", - Joe Wilson yazıb.

Rusiya ordusunu şikəst edə biləcək sərt sanksiyalarla yanaşı, konqresmen Ukraynaya müasir silahların verilməsinin vacibliyində israr edir ki, bu da Rusiyaya strateji zərbələr endirməyə imkan verəcək. O vurğulayıb ki, Putin artıq Ukrayna ərazisindəki münaqişə ilə məhdudlaşmır, birbaşa NATO-nun gücünü sınayır. "Putin artıq Ukraynadakı məğlubiyyətlə, ana və körpələri bombalamaqla kifayətlənmir, o, indi birbaşa NATO torpaqlarında bizim qətiyyətimizi sınayır. Putin bəyan edib ki, "Rusiya sərhəd tanımır". Azad və firavan xalqlar Rusiyaya sərhədlərin nə olduğunu öyrədəcək", - konqresmen yazıb.

Siyasətçi deyib ki, Rusiyanın bu cür davranışı onun qeyri-məhdud genişlənmə istəyini nümayiş etdirir, lakin demokratik ölkələr öz sərhədlərini və azadlıq prinsiplərini müdafiə etməyə hazırdırlar. Bundan əvvəl Ukrayna Hərbi Hava Qüvvələri sentyabrın 10-na keçən gecə Rusiya pilotsuz təyyarələrinin Polşanın hava məkanına uçuşu barədə məlumat verməmişdi ki, bu da Polşada bir neçə hava limanının müvəqqəti bağlanmasına səbəb olub.

## Nepalın qeyri-adi çevrilişi

Sosial medianın bloklanması və korrupsiyaya görə qəzəb Nepalda polislə gənc etirazçılar arasında şiddətli toqquşmalara səbəb olub. Nepal ölkənin müasir tarixində ən böyük etiraz aksiyalarına bürünüb. Səbəb korrupsiya, zəif iqtisadiyyat və hökumətin sosial medianı qadağan etmək qərarı ilə bağlı narazılıqdır. Qlobal medianın adlandırdığı Zoomer İnqilabı indi bir neçə nazirin istefaya getməsi və parlament binasının gənclər tərəfindən yandırılması ilə sürət qazanır.

## Zoomer İnqilabı

"Zoomer Generation" adlanan etirazlara hökumətin Facebook-a qadağası səbəb olub. Onlar saxta xəbərlərin, nifrət nitqinin və kibercinayətkarlığın yayılması ilə mübarizə aparmaq məqsədilə 26 digər sosial media platformasına girişi məhdudlaşdırmağı planlaşdırırdılar. Etirazçılar hökuməti senzura və avtoritar üsullarla, habelə korrupsiyaya qalib gəlməkdə ittiham ediblər.

"Nepo uşaqlar" hərəkatı nədir? Nepalda sosial medianın məhv olmaq təhlükəsi də "nepo uşaqları" adlı onlayn hərəkatın yüksəlişi ilə üst-üstə düşdü. Bu termin çox güman ki, Hollivudda məşhurlaşan "nepo körpə" terminindən götürülmüşdür ki, bu da məşhurların övladlarının ailə əlaqələri vasitəsilə imkanlar əldə etdikləri qohumbazlıq təcrübəsinə istinad edir. Son günlər Nepal vətəndaşları TikTok və Reddit-də siyasi liderlərin, xüsusilə də keçmiş baş nazirlərin və nazirlərin övladlarının foto və videolarını yerləşdirirlər, onları dəbdəbəli həyat tərzini və xarici səfərləri maliyyələşdirmək üçün vergi ödəyicilərinin pullarından istifadə etməkdə ittiham edirlər. Yazılar xüsusi heşteqlərdən istifadə edilməklə paylaşılıb və belə bir TikTok postuna 24 saat ərzində 1,3 milyondan çox baxış olub.

Etirazçılar etiraf edirlər ki, sosial media qadağası etirazlara səbəb olub, lakin əsl "diqqət" ölkədə daha geniş korrupsiyaya yönəlib. Nəticədə etirazçılar bazar ertəsi Katmanduda parlament kompleksini mühasirəyə alaraq təhlükəsizlik postunu zəbt ediblər. Bundan sonra etirazçılarla hüquq-mühafizə orqanları arasında toqquşmalar başlayıb. Nəticədə 19 etirazçı həlak olub, 300-dən çoxu yaralanıb. Şahidlərin xarici mediaya verdiyi məlumata görə, hakimiyyət kütləyə qarşı həqiqi güllələrdən, həmçinin rezin güllələrdən və su şırnaqlarından istifadə edib.

## Yanğınlar və istefalar

Ölümlə nəticələnən qarşıdurmalardan sonra hökumət sosial mediaya qoyulan qadağanı aradan qaldırıb. Bununla belə, çərşənbə axşamı etirazçılar baş nazir Şarma Olinin şəxsi iqamətgahı qarşısında toplaşaraq etirazçıların ölümünə görə məsuliyyət tələb edib və onun hökumətini korrupsiyada ittiham ediblər. Nəticədə təhlükəsizlik qüvvələri etirazçıları yenidən dağıtmağa başlayıb və onlar iqamətgahı yandırıblar. Videolarda nümayişçilərin binanın yanan zaman necə rəqs etdiyi və bayram etdiyi göstərilir.

Şiddətli etirazlar fonunda Nepalın dörd naziri istefa verib. Xüsusilə, Nepalın daxili işlər naziri Ramesh Lekhak, kənd təsərrüfatı naziri Ramnath Adhikari, səhiyyə naziri Pradeep Paudel və idman naziri Tejulal Çaudhari. Ölkənin baş naziri də istefa ərizəsi yazıb. Nepalda etirazçılar həmçinin hakim partiyanın ofislərini və Canakpurdakı binaları yandırıblar. Yerli media parlament binasının yandırılaraq məhv edildiyini yazıb: etirazçılar hətta onu söndürməyə belə cəhd etməyiblər. Bütün vacib sənədlər məhv edilib. Nepal ordusu artıq nümayişçilərə xəbərdarlıq edib: "İğtişaşlar davam edərsə, hərbçilər küçələrdə hərəkətə keçəcək".

Bəli, dünyanın 3 bucağında yeni hücum, müharibə və iğtişaş baş verib. Hər keçən gün yeni-yeni qarşıdurma ocaqlarının yaranması, əlbəttə, bəşəriyyətin normal həyatını təhdid etməkdir. Sabitlik isə hələ də çox uzaqdadır.

**V.VƏLİYEV**

# 2030-cu ildə dünyanı və ölkəmizi nə gözləyir?

***Analitiklər: İqtisadi güc balansı dəyişəcək, neft ucuzlaşacaq, əhali 8,5 milyardı keçəcək, su və ərzaq çatışmazlığı yaranacaq, sənaye istehsalı artacaq...***

Dünyanın nüfuzlu analitikləri mütəmadi olaraq dünyanın gələcək mənzərəsi ilə bağlı təhlillərini hazırlayır. Son dövrlərdə isə iqtisadi və sosial proqnozlar daha çox maraq doğurmağa başlayıb, çünki hazırda dünyada müharibələr və sosial-iqtisadi böhranlar insanları dünyamızın gələcəyi ilə bağlı daha çox düşünməyə məcbur edir. Bu yazıda, əsasən, iqtisadi proqnozlara və təhlillərə üstünlük verəcəyik.

Hazırkı proqnozlara görə, 2030-cu ildən sonra dünyada sosial-iqtisadi vəziyyət kökündən dəyişəcək. 4-cü sənaye inqilabı istehsalı tamam dəyişəcək, məhsul istehsalı artacaq. Yer əhalisi 8,5 milyarda catacaq. Suya və enerjiyə tələbat təxminən 2 dəfə, qidaya tələbat isə 30% artacaq. Şimali Afrika və Mərkəzi Asiya kimi bəzi regionlar qida və su çatışmazlığı kimi ağır problemlərlə qarşılaşacaq. Alternativ enerjilərə keçidlə bağlı neftə tələbat azaldığından neft ixracından asılı ölkələr çətin vəziyyətə düşəcək. Dünyanın iqtisadi güc balansı əhəmiyyətli şəkildə dəyişəcək.



## 2030: Dünya iqtisadiyyatında güc mərkəzi dəyişəcək

Analitiklərə görə, 2030-dan sonra OPEK-in neftin qiymətlərinə nəzarəti tam pozulacaq ki, bu da hər şeydən göründüyü kimi, neft və qaz ixracından asılı olan iqtisadiyyatlar üçün mənfi nəticələrə səbəb olacaq. Bununla yanaşı, informasiya texnologiyalarının inkişafı iqtisadi məhsuldarlığa geniş təsir göstərməyə başlayacaq. Hazırkı hegemon ölkələrin qlobal təsiri itəcək. Çin, Hindistan, Rusiya kimi qlobal, həmçinin Braziliya, İndoneziya, Cənubi Afrika kimi regional iqtisadiyyatlara malik ölkələrin dünya iqtisadi sistemində rolu daha da artacaq. Növbəti 10-15 ildə yeni texnologiyaların inkişafı nəticəsində transmilli şirkətlər sürətlə inkişaf edən bazarlara daha çox diqqət verəcək. Proqnoza görə, 2030-cu ildə Çin iqtisadiyyatı dünya iqtisadiyyatını tamamilə idarə edəcək. Hindistan da dünya iqtisadiyyatında gücünü xeyli artıracaq. Dünyanın iqtisadi mərkəzi tam olaraq Cənub-Şərqi Asiyaya keçəcək. II Dünya Müharibəsindən qazancli və varlanmış şəkildə çıxaraq inkişafını sürətləndirən ABŞ-in və Avropanın iqtisadi hakimiyyət dövrü bitir.

Proqnozlara görə, karbohidrogenlər bazarı üçün yeni texnologiyaların istehsalı və alternativ enerji sahələrinin inkişafı neftin ucuzlaşmasına səbəb olacaq ki, nəticədə iqtisadiyyatı neft ixracından asılı olan ölkələr üçün ciddi problemlər yaranacaq.

Analitiklər 4-cü sənaye inqilabının dünya iqtisadiyyatını tamamilə dəyişəcəyini, yeni texnologiyalarla məhsul istehsalının artacağını ehtimal edirlər. Ərzağa və dərmanlara və texnika mallarına tələbat artacaq. Bu səbəbdən texnoloji məhsullar istehsal edən ölkələrin, həmçinin ərzaq və dərman istehsalı çox olan ölkələrin gəlirləri artacaq.

## Öz xammalı olmayan ölkələr iqtisadi tənəzzülə məruz qalacaq

Rusiya Strateji Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin ekspertləri hesab edir ki, təxminən 5 il sonra dünyanın iqtisadi cəhətdən ən qüdrətli 5 dövləti arasında Çin, Hindistan, ABŞ, Almaniya ilə birgə Rusiya da olacaq.

"Dünyanın iqtisadi mənzərəsi göstərir ki, ehtiyatları həddən artıq istismar olunmuş Qərb və Uzaq Şərq ölkələri durğunluq dövrü yaşayacaq. Dünya əhalisi artır, təbii ehtiyatlar sürətlə istismar olunur, bir çoxları tükənmək üzrədir. Artıq inkişaf etməkdə olan ölkələr sürətlə sənaye texnologiyalarına yiyələnirlər, öz xammallarını ucuz qiymətə Qərbə satmaq əvəzinə özləri istehsal etməyə başlayırlar. Bu tendensiya artıq təbii ehtiyatları tükənmiş, xammalı ehtiyatı və enerji resursları olmayan iri sənaye dövlətlərinin iqtisadiyyatını zəiflədəcək"- mərkəzin proqnozunda bildirilir.

Analitiklər hesab edir ki, dünyanın ərazisinə görə ən böyük ölkəsi olan Rusiyada nəhəng təbii ehtiyatlar, güclü aqrar sektor, böyük elmi-texniki potensial və sənaye bazası var. Uzaq Şərqdə, Sibirdə və Arktikada mənimsənilməmiş nəhəng mineral ehtiyatlar var. Rusiya dünyanı gözləyən su problemini də yaşamayacaq. Mərkəzin ekspertləri hesab edir ki, ABŞ və iri Qərbi Avropa dövlətlərinin iqtisadi hegemonluğu 2030-cu illərdə tam başa çatacaq. Bu ölkələrin öz təbii ehtiyatları tam bitəcək və xaricdən xammal almaq çətin olacaq. Eyni aqibət Çini, Avropanın bir sıra ölkələrini, Yaponiyanı və Cənubi Koreyanı da gözləyir.

## 2030-da sosial-iqtisadi sahədə Azərbaycanı nə gözləyir?

Azərbaycana gəldikdə, 5 il sonranı dəqiq proqnozlaşdırmaq çətindir, amma təxmini vəziyyəti təsəvvür etmək olar. Bütövlükdə, yaxın illərdə neft sektorundakı hasilatı və təbii qaz satışından əldə ediləcək gəlirləri, eləcə də qeyri-neft sektorunun perspektiv potensialı nəzərə alaraq 2030-cu il üçün təxmini proqnoz hazırlamaq mümkündür.

Bütün hallarda növbəti illərdə iqtisadiyyatın diversifikasiyası sürətlənərsə, yəni qeyri-neft sektorunun inkişafı baş verərsə, ciddi problemlər yaranmayacaq. 2030-cu illərdə neftin hasilatının xeyli azalması fonunda gəlirlərin qeyri-neft sektoru hesabına kompensasiya edilməsi nəticəsində Azərbaycanda iqtisadi inkişaf fərqli müstəvidə davam edə bilər.

2030-cu ildə vəziyyətin necə olacağını qarşıdakı illərdə iqtisadiyyatın şaxələndirilməsi prosesinin necə aparılacağı müəyyən edəcək. 2030-cu ildə Azərbaycan iqtisadiyyatının indikindən 50 faiz böyük olacağını ehtimal etmək olar, təbii ki, bu, qeyri-neft sektorunun inkişafı hesabına mümkün ola bilər. Kiçik və orta sahibkarlığa dövlət dəstəyi gücləndirilsə, ölkədə ÜDM-in və dolayı yolla dövlət büdcəsinin gəlirləri daha çox artacaq. Buna müvafiq olaraq idxaldan asılılaq azalacaq, ixrac çoxalacaq.

İqtisadçıların ümumi fikrinə görə, qeyri-neft sektorunun inkişafı prosesində klaster yanaşmada əsas perspektivli sahələr yüngül sənaye, xüsusilə qida sənayesi, aqrar sektordur. Ölkələrin təbii sərvətlərinin mövcudluğu əsas deyil, əsas innovativ yanaşma, texnoloji yüklü iqtisadiyyat yaratmaqdır. İnnovativ dəyər yaradan sektorlar dəstəklənməlidir. Ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi, turizm imkanlarının genişlənməsi də iqtisadi inkişafa töhfə verə bilər.

Ümumiyyətlə, hökumətin sosial-iqtisadi inkişaf konsepsiyasına görə, yeni mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

***Elçin Bayramlı***



**MƏTANƏT**

# Kor ol, kar ol, lal ol...

***Müasir gənclərin bizi bəzən qınaması, vallah, heç də yersiz deyil. Son zamanlar onların üstünə çox gedirik, bəzi məsələlərdə çox deyinirik, onları tənbeh edirik. Onlar da bizə "siz geridə qalmısınız, bu, belə deyil, bizim bildiyimiz, etdiyimiz kimidir",-deyirlər.***

Məsələn, bəzi gənclərimiz var ki, ictimai yerlərdə ucadan danışırlar, deyib-gülürlər. Biz də onları görəndə cin atına minirik. İstər-istəməz onlar barədə danışanda, qınayanda, cavabımızı belə alırıq ki, ay yazıqlar, müasir dövrdür, indi alçaqdan yox, ucadan danışmaq lazımdır ki, hər kəs eşitsin, gülsün, kefi açılsın. Bir də ki, ucadan danışmaq, gülmək dəbdir.

Tez-tez yolda, metroda, avtobusda, mağazada ağzında saqqız şövqlə çeynəyən gənclər görürsən. Yadına düşür ki, valideynlərimiz deyərdi, ictimai yerdə saqqız çeynəmək mədəniyyətsizlikdir, insanlara qarşı hörmətsizlikdir. İstəyirsən ki, bu tövsiyəni bəzi gənclərə edəsən. Qayıdıb nə desələr yaxşıdır? Saqqız çeynəmək müasirlikdir. İndi artıq sizin dövrünüz deyil. Saqqız təravətli nəfəsdir... Həm də dəbdir, məxsusilikdir.

Bu cavabı eşidəndə nə edirsən, matın-qutun quruyur.

Hazırkı cəmiyyətin müasirliklərindən biri də bəzi gənclərimizin geyimləridir ki, qızların yay-qış göbəkləri bayırdadır. Deyirsən, ay bala, bu nə geyimdir, axı sənə soyuq dəyər, xəstə olarsan, sabah bir qapını açıb gəlin gedəcəksən, ana olacaqsan. Nə üçün qorxmursan ki, səni bu geyimlə bəyənən olmaz? Nə desələr yaxşıdır? Cəhənnəmə bəyənsin, gora bəyənsinlər. İndi belə geyim bütün dünyada dəbdir. Bu, mənim tərzimdir, kim məni bəyənərsə, bu geyimlə də qəbul etməlidir.

Aldın cavabını, gözüm kəllənəmi çıxdı?

Bir də baxırsan ki, qarşıdan bir dəstə gənc oğlan gəlir. Birinin şalvarının dizi yoxdur, birinin saqqalı sinəsində, birinin saçı qalxıb göyün yeddinci qatına, o birinin saçı bir neçə rəngdədir, o birinin corabının bir tayı bir rəng, o biri tayı başqa rəngdir. Baxırsan-baxırsan, vallah, bilmirsən güləsən, ağlayasan, nə edəsən. Yeri gələndə söhbət açıb deyirsən ki, ay bala, kişinin kişi geyimi olar. O dizi yox şalvarı kişi əyninə geyinər məgər? O qadın saçı ilə kişi bayıra çıxar? Niyə o saçlarını qaydasında kəsdirmirsən? O corabı geyinəndə görmürsən ki, taykeşdir? Və yaxud da o saçını niyə çəhrayı rəngə boyamısan?

Hə, bunları deyib öyüd-nəsihət verəndə adamın üzünə elə qabarırlar ki, yerindəcə donub qalırsan. Cavabları isə bu olur ki, ay yazıq, sən keçmişdən gəlmisən. Biz isə bu gündə yaşayırıq. Buğunun dəbi budur. Həm də ki, kim istəyir cırıq şalvar geyinməsin, corabını taykeş yox, cüt geyinsin, saçını göyə qaldırmasın, yerə endirsin, rəngləməsin, öz rəngində saxlasın, onlardan bizə nə? Bu, bizim tərzimizdir. Sən də udquna-udquna qalırsan, söz tapıb deyə bilmirsən. Bir də ki, axı nə deyəsən? Səni elə yerində oturdurlar ki, cınqırın da çıxmır.

Hə, elə qızlarımız var ki, əyinlərindəki bir qarışdan da qısa ətəklərini görəndə, deyirsən ki, İlahi, yəqin bunlar evdən çıxanda anaların başı mətbəxdə iş-gücə qarışıbmış, yoxsa... Fikirləşirsən ki, mən də olum bunun anası, nə olar, gəncdir, başa salım, düz yol göstərim. Deyirsən ki, qızım, bu ətəyin bir azacıq uzun olsa, sənə çox gözəl yaraşar. Qayıdıb sənə nə desə, yaxşıdır? "Sən get öz qızına yol göstər. Mən evdən çıxanda görənim var. Bir də axı sən nə bilirsən, müasirlik nədir, dəb nədir? Sizlər XX əsrdə qalmısınız, indi XXI əsrdir".

Deyirsən ki, dilim, dilim-dilim olasan, fərağat dayan da. Düz deyir də, anası var, evdən çıxanda görməyib məgər? Görməyib də özü bilər, görərdi də...

Heç nə, ta nə edəsən ki? Nə də etməlisən ki? Kor ol, görmə, kar ol, eşitmə, lal ol, danışma. Danışarsan, cavabını alarsan...



## FELYETON

# Çox vacibdir, ət yeyək?..

Yüz ildir ki, tibb də, təbabət də deyir və təsdiq edir ki, ət insanı qocaldır. Çox təəssüf ki, biz də ət sevənik. Odur ki, nə tibbə, nə də təbabətə məhəl qoyuruq. Bildiyimiz biləyimizdəcə, öz yolumuzla gedirik, elə ki, əlimizə pul keçdi, ilk düşündüyümüz ət olur, ala bilsək də, bilməsək də. Hələ aramızda elələri var ki, içində ət olmayan yeməyi yemir. Deyir ki, bundan yemək çıxmaz. Soruşanda da ki, nə üçün? Deyir ki, içində qırmızı şey olmayan yemək deyil.

Ölkəmizdə də nə qədər desən, toyuq, ət alverçisi var. Nə yaxşı da ki, var. Belə baxanda, onlar bizi özümüzdən çox istəyir. Sağlamlığımızın da qeydinə qalırlar, sağ olsunlar. Ətin, toyuğun qiymətini özləri istəməyərək, bizə xətir hərdən çox azca qaldırırlar ki, bəlkə pul tapıb ala bilməyək. Görürlər ki, yox, bu, camaata kar etmir. Elə yenə də əllərinə pul düşdümü, "ziyandır",- bilmir, ət, toyuqdur ki, daşıyırlar. Belə olanda yenə bizə xətir qiymətı bircə damcı da qaldırırlar.

Bir də görürsən ki, camaat "bahadır",-deyib ətə deyil, toyuğa meyl edir. Belə olanda bizi düşünənlər başlayır toyuğu broylerin gücləndirilmiş rejimdə istehsalına. Maşallah, elə işləyirlər ki, 3 günə 1-2 kiloqramlıq toyuq hazır olur, mağaza-marketlər də ağzınadək dolu olur. Al, ye...

Hərdən, sağ olsunlar, qırmızı ət xəstələrinə də yazıqları gəlir. Bunun üçün haralara üz tuturlar, Allah bilir. Bir də baxırsan ki, marketlər doldu şaqqa-şaqqa ətlərlə. Camaat əziyyət çəkib nə bu ətləri kəsəni, nə harada kəsildiyini görür.

Niyə də görməlidir ki? Yox, hələ iş-gücünü burax, bununla da maraqlan. Sənin ki, bu qayğını çəkənlər var, sağ olsunlar, gedib danışır, kəsdirib gətirir, doğrayıb yığırlar ora, sən də rahat al, ye də.

Ancaq çox təəssüf ki, bizim bu camaat sən deyən qədirbilən deyil ha... Yazıq alverçilər gedib o qədər əziyyət çəkib gətirib sizə su qiymətinə ət, toyuq verməyəcək ki. Elə hey eşidirsən ki, camaat narazıdır. Nədən? Qiymətlərdən. Deyirlər ki, ətlə toyuğun qiyməti hər gün qalxır.

Harada qalxdı axı? Cəmi-cümlətanı son bir ayda mal ətinin bir kiloqramının pərakəndə satış qiyməti 16-17 manatdan 20 manata, quzu ətinin bir kiloqramının qiyməti 17-18 manatdan 19-21 manata qədər yüksəlib də. Niyə bu nə qədər artımdır ki, dilə alıb danışırsınız.

Hələ bu azmış kimi, toyuq yetişdirəni, ət gətirəni və satanı möhtəkir də adlandırırsınız. Əşi, bu insanlar sizi düşünür axı. Azacıq artım da hərdən ona görə olur ki, sizlər arada kartof, lobya, badımcan, əriştə, yarma, vermişel də yeyəsiniz. Yoxsa, nə qədər toyuq, ət yemək olar.

Camaat sizdən yana narahatdır ki, qocalmayasınız, həmişə gənclik təravəti üzünüzdə olsun, vaxtından əvvəl üz-gözünüz, əlləriniz qırışmasın, siz də sizi düşünənlərin adını möhtəkir qoyur, bu cüzi artımlar üçün səhərdən axşama deyinirsiniz.

Vallah, xətriniz qalsa da, deyəcəyəm, qədirbilən deyilsiniz. Sizi düşünənlərin qədrini bilmədikcə, Allah sizə heç pul da yetirməyəcək ki, ət alıb yeyə biləsiniz. Bir gün o möhtəkir adlandırdıqlarınız sizdən elə inciyəcək ki, qiyməti qaldırıb qoyacaq ceyranın belinə, onda marketlərdə ətə yalnız şüşənin arxasından baxa-baxa qalacaqsınız... Onda ağlınız başınıza gələcək. Bir də ki, çox vacibdir, ət yeyək? Ət bahadır, toyuq ye. İkisi də ətdir də...

**_Mətanət Məmmədova_**

# "Beyin mərkəzləri sülh və inkişafa xidmət edir"

"Beyin mərkəzlərinin iş birliyi, fikir mübadiləsi, məlumat mübadiləsi, müzakirələri - bütün bunlar təkcə bir ölkənin deyil, bütövlükdə dünyanın taleyini dinci yolla həll etməyə çox böyük töhfə verə bilər". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, bir tərəfdən məlumat mübadiləsi aparılır, digər tərəfdən müzakirə müstəvisi yaradılır, eyni zamanda qərarverici şəxslərin diqqəti cəlb olunur. Bütün bunlar beyin mərkəzlərinin faydalı işinin nəticəsi olaraq dəyərləndirilir: "Savaşlarla, silahlarla, müharibə meydanlarında birbirini anlamadan, danışmadan, müzakirə aparmadan üz-üzə gələn dövlətlər, qüvvələr və tərəflər beyin mərkəzlərinin vasitəçiliyi ilə masa arxasında oturub fikir mübadiləsi apara bilirlər. Nəticə etibarilə bu, sülhə xidmət etmiş olur. Beyin mərkəzləri eyni zamanda bir dövlətin inkişafı üçün vacibdir. Onlar həm daxili ictimai rəylə işləmək, həm də xarici və qlobal ictimai rəyi öyrənmək baxımından mühüm rol oynayır. Gələcəyin planlaşdırılması, sosial və siyasi qərarların düzgün istiqamətləndirilməsi də bu qurumların fəaliyyətindən asılıdır.

Dövləti və ya dövlətin müxtəlif qurumlarını idarə edən şəxslərin beyin mərkəzlərinə hər zaman ciddi ehtiyacı olur. Çünki idarəedici şəxslərin çox vaxt araşdırma aparmaq, təhlil etmək, geniş analizlər üzərində işləmək imkanı olmur. Bu halda beyin mərkəzlərinin hazırladığı araşdırmalar, təhlillər və



təkliflər onların yükünü azaldır, qərarların daha dəqiq və faydalı qəbul edilməsinə imkan yaradır. Beləliklə, beyin mərkəzləri həm dövlətlər, həm də cəmiyyətlər üçün böyük əhəmiyyət kəsb edən qurumlardır və onların fəaliyyəti ümumilikdə sülhün, inkişafın və tərəqqinin təmin olunmasına xidmət edir".

Eyni zamanda siyasi şərhçi qeyd edir ki, bu cür toplantıların Bakıda, Azərbaycanda keçirilməsi, yaxud da bizə yaxın bölgələrdə təşkil olunması və bizim də həmin tədbirlərdə iştirakımız, təbii ki, Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinə əlavə töhfə verir: "Beyin mərkəzləri təbiidir ki, bir-biriləri ilə əlaqələri genişləndirirlər, daha effektiv işlər görürlər, fikir və informasiya mübadiləsi aparırlar. Bütün bunlar dövlətlərin və xalqların sülh şəraitində yaşamasına ciddi töhfə verir və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. Bundan əlavə, təhlükələrin aradan qaldırılması və ya onların qabaqlanması baxımından da bu cür görüşlər və toplantılar əhəmiyyətlidir. Onlar həm regiondakı siyasi stabilliyi gücləndirir, həm də iqtisadi və humanitar sahələrdə əməkdaşlıq imkanlarını artırır.

Təbii ki, nəticələrini zamanla görəcəyik və həmin nəticələrə uyğun olaraq yeni fikirlər formalaşa bilər. Amma ümumi olaraq demək istəyirəm ki, belə toplantılar, qarşılıqlı yaxınlaşma və inteqrasiyanın dərinləşdirilməsi sülhün təmin olunması baxımından çox vacibdir. Bu görüşlər həm də gələcəkdə daha geniş əməkdaşlıq və birgə layihələrin qurulması üçün zəmin yaradır".

**_Günel Fərzəliyeva_**



# Bizdən ötdü, kimə dəydi?

**Lalə Mehralı**

***Adətən, eko-çanta ilə alış-veriş edirəm, əl çantamda həmişə ehtiyat ekoloji təmiz materialdan olan alış-veriş torbam olur. Daha az polietilen istehlak edim, təbiətə daha çox zərər verməyim deyə mümkün bütün imkanlardan istifadə edirəm. Marketlərdə iki məhsulu ayrı-ayrı sellofan torbaya qoymaq istəyən işçilərə, paketə yığmağa kömək edən kassirlərə "torba istəmirəm" deyəndə elə zənn edirlər ki mən 3-5 qəpik artıq hesablanır deyə götürmürəm torbanı.***

Məsələn, həyətdəki dükandan zavodda paketlənmiş çörəyi alıb evə çıxıramsa hətta çantamda eko-torbam yoxdursa belə əlavə polietilen torba almıram, əlimdə aparıram. Yaxud həm alma, həm banan almışamsa eyni torbaya qoyuram, hərəsi üçün ayrı torba götürmürəm. Mağaza işçisi ayrı paketə qoymaq istəyir, "lazım deyil" deyirəm. "Pulsuzdur" deyir. Yenə izah etmək məcburiyyətindəyəm, "mən o paketdən artıq götürüb aldığımı içinə qoyub 10-15 m məsafəyə aparacam, sonrası nə olacaq? Təbiətə atacam məcbur. Amma iki məhsulu eyni paketdə apara bilərəm, elə deyil? İkisi də meyvədir, yaxud biri meyvə, biri tərəvəzdir, bir yerdə aparmaqda heç bir problem yoxdur." Etinasız-etinasız baxır.

Başqa bir misal, iki gün əvvəl mağazadan pomidor, soğan aldım. Hər ikisinin ayrıca çəki torbası vardı, kassada oturan mağaza işçisi ikisini yenidən əlavə torbaya qoymaq istədi. Görünməyən, şəffaf olmayan, üzərində mağazanın etiketi olan torbanı nəzərdə tutuam. Müdaxilə etdim, "istəmirəm" dedim, o da qarşılığında "torba pulsuzdur" dedi. Dedim: "pullu olduğunu düşündüyüm üçün demirəm, çalışıram polietilen istifadəsini minimuma endirim, təbiətə zərər vurmayım". O da başqaları kimi susdu, laqeyd-laqeyd baxdı.

Məncə, biz etinasızlıqdan ölürük. Əlimizə nə gəlir atırıq təbiətə. Quru ərazilərin evini çoxdan yıxmışıq, okeanlara, dənizlərə də əl atmışıq. Etinasızlıq yıxır evimizi. Hamı fikirləşir ki guya mən atmasam o plastikləri təbiətə, başqası atmayacaq? Bir artıq, bir əskik, nə fərqi var? Sən atma! Qoy bir torba, qoy bir qutu az düşsün təbiətə. Sən etinasız olma, sən vecsiz olma, iki məhsulu eyni torbada daşımaq mümkündürsə birini alma, birini atma.

Çox sevirəm Məmməd Arazın "Məndən ötdü" şeirini. Etinasız insan görəndə, etinzasızlıq göstərilən bir vəziyyət görəndə tez-tez xatırlayıram o şeiri. Əslində bizdən ötmür, dönüb-dolaşıb yenə özümüzə qayıdır etdiyimiz. Torpağa atdığımız plastik yeməyimizə qarışır, okeana, dənizə, çaya atdığımız plastiklər suyumuza qarışır, hər yana səpdiyimiz tullantılar havamıza qarışır. Kimdən ötür, kimə dəyir etdiyimiz?

PS: Hər il dünyada 1 trilyon sellofan-polietilen torba istehsal edilir. Dünyada hər 1 dəqiqədə isə 1 milyon polietilen torba zibil qutusuna atılır. Okeanda səfərdə olan gəmilər ildə 4 milyon kiloqram polietilen torbanı dənizə atır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir. İndi siz deyin, bizdən ötürmü?

# Vahid müəllim forması: xeyri olar, zərəri yox

Azərbaycan məktəbləri həm müəllim, həm də şagirdlərin vahid forma geyindiyi və geyinmədiyi dövrləri görüb. Vaxt var idi ki, məktəblərdə nə müəllim, nə şagird vahid forma geyinirdi. Vaxt var idi ki, şagirdlər geyinirdi, müəllimlər yox. Hazırda isə şagirdlər geyinir, müəllimlər yox. Bəs vahid müəllim geyimi lazımdırmı? Bu sual bütün dövrlərdə müzakirə obyekti olub. Kimi müəllim üçün bunun əhəmiyyəti olmadığını, kimi vacib olduğunu, kimi vahid geyim formasının yalnız uşaqlara gərək olduğunu öz baxış bucağından müzakirə edib. Lakin məsələyə şüurlu şəkildə yanaşdıqda vahid geyim formasının məktəblərdə şagird kimi, müəllim üçün də əhəmiyyətli olduğunu görmək asandır. Yeni dərs ilinin başlanmasına sayılı günlər qalmış Samux rayonu Qarayeri qəsəbə 2 saylı tam orta məktəbində müəllimlərin vahid forma geyinmək üçün qərar qəbul etdikləri və bunun da müzakirələrə səbəb olduğu bir vaxtda vahid formanın əhəmiyyətindən bir qədər danışaq. Danışdıqca, düşünürəm ki, bunun faydalı tərəfləri öz-özlüyündə ortaya çıxacaq.

## Müəllimlərin geyimindən başlayaq...





Son 4-5 ilə kimi Naxçıvanda məktəblərin hər birində şagirdlər kimi, müəllimlər də vahid geyim geyinirdilər. Bunun böyük əhəmiyyətə malik olduğunun şahidi olduğum üçün bu barədə danışmaq istəyirəm. Vaxtilə mən orta məktəbdə təhsil alarkən müəllimlərin vahid forması yox idi. Kişi müəllimlər ağ-qara, göy rənglərdən daha çox istifadə edir, kostyumla bu rənglərdə köynəklər geyinirdilər. Lakin qadın müəllimlər müxtəlif rənglərdə paltarlar geyinirdi. Biz yuxarı siniflərə qalxdıqca, artıq qadın müəllimlərin geyimlərini də müzakirə edirdik: yaraşmayıb, burası dardır, orası gendir. Bu rəngdə paltarla məktəbə gələrlər? Bu paltardan anamın da var, ona daha gözəl yaraşır. Bunun başqa rəngindən filan qohumda da var.

Bu paltarı müəllimin rayona gələn, yalnız xüsusi adamların ala biləcəyi xarici paltarlar anbarından, yoxsa univermaqdan aldığı, tikdirdiyi və yaxud hazır paltar olduğu belə aramızda müzakirə olunurdu. Müəllim lövhədə yazı yazanda paltarının arxa hissədən darlığı, əyiləndə qarşı tərəfdən azacıq sinəsinin görünməsi, hətta ətəyinin yırtmacından astarın görünməsi belə müzakirələrimizdə yer alırdı.

Kişi müəllimlər isti aylarda şalvar-köynək, havalar soyuyanda isə şalvar-pencək geyinirdilər. Ona görə də bizim müzakirələrimiz yalnız qadın müəllimlərin geyimləri üzərində qurulurdu. Hətta bu, dərs prosesinə də təsir göstərirdi. Dərsin qızğın yerində biz artıq müəllimin geyindiyi yeni paltarı müzakirə edir, bunu yaxınlıqdakı qızlarla pıçıldaşır, uzaqdakılara kiçik kağızlarda yazıb atırdıq.

Tək biz deyil, qadın müəllimlərin də dəhlizdə, müəllimlər otağında bir-birinin geyimini müzakirə etdiklərini eşidirdik. Hansı müəllimin həyat yoldaşının vəzifədə işlədiyi, paltarlarını haradan və hansı qiymətə aldığı, hansı müəllimin paltarını səliqəli, hansının səliqəsiz geyindiyi, yaraşıb-yaraşmaması məsələlərinədək hər biri həm müəllimlər, həm də qızlar arasında uzun-uzadı müzakirə olunurdu.

Hələ böyüdükcə biz də müəllimlər kimi görünməyə çalışırdıq. Yadımdadır, bizə rus dili müəllimi gəlmişdi, gənc qız idi, yenicə universiteti bitirmişdi. Çox dəbli geyinirdi. Hətta onun geyiminin rayon yerinə uyğun olmadığı barədə söhbətlər də gəzirdi. Lakin bu günün prizmasından baxdıqda onun geyimində bir qüsur görmürəm. Sadəcə gənc idi, ətəyini bir qədər dar geyinirdi, köynəkləri əlvan olurdu, yəni sözün həqiqi mənasında, gəncliyi ilə geyimi gözəl bir harmoniya yaradırdı. Biz nə edirdik? Artıq o cür geyinmək, gözəl görünmək istəyirdik.

11-ci sinifdə oxuyarkən artıq biz qızlar məktəbə elə geyinib gedirdik ki, tanımayan olsaydı, müəllim olduğumuzu hesab edərdi. Gənc müəllimlərin geyimindən ilhamlanıb onlar kimi görünməyə can atırdıq. Bu dəfə isə artıq bizim geyimimiz həm müəllimlər, həm də digər qızlar arasında müzakirə olunurdu. Artıq müəllimlərin bizim geyimlərdən narahat olduqları da diqqətimizdən yayınmırdı. Çünki artıq biz onlardan fərqli görünmürdük. Yadımdadır, hələ onlardan bizi sinifdə saxlayıb geyindiyimiz ətəyimi, köynəyimi, donumu haradan aldığımızı soruşanlar da olurdu. Paltarımızın dar olduğuna və yaxud da çox geniş olduğuna münasibət bildirən müəllimlər də var idi.

İstər müəllimin, istər şagirdin məktəbə istədiyi kimi geyinib gəlməsində böyük qüsur olduğunu görmək heç də çətin deyil. Çünki bu geyimlər dərs prosesinə böyük maneçilik törədir. Elə bizim də 3-5 dəqiqəlik tənəffüs vaxtımızı belə əlimizdən alırdı. Bufetə bir stəkan çay içməyə getmək əvəzinə, müəllimlərin geyimlərinin müzakirəsini aparırdıq.

## Şagirdlər vahid forma geyindi

Sovet ittifaqının dağılması ilə müstəqilliyimizin bərpası arasında olan boşluq illərindən sonra, 90-ların axırından etibarən artıq məktəblərdə şagirdlər üçün vahid forma sistemi-




nə keçilməyə başlandı. Düzdür, bu, Azərbaycanın bütün regionlarında eyni zamanda baş vermədi, mərhələ-mərhələ həyata keçirildi. Bu proses valideynləri çoxsaylı problemlərdən xilas etdi. Gündə bir paltar geyinmək istəyi, xüsusilə də yuxarı siniflərə qalxdıqca uşaqların geyim arzularının da artması vahid forma sisteminin tətbiq olunması ilə geridə qalmağa başladı. Hər bir məktəbli eyni formanı geyindi. O vaxtdan bu günədək artıq bütün ölkə məktəblərində məktəbli formaları tətbiq olundu, aradabir dəyişdirilsə də, lakin hər bir region, məktəb üçün hazırda ümumi məktəbli geyiminin olması həqiqətən də təhsil sistemində üstün cəhətlərdəndir. Çünki bu sistemdə hər şey ən birinci geyimdən, davranışdan başlanır.

Geyim həm də məsuliyyətdir. Vahid formaya keçid hər bir valideynin və şagirdin üzərinə böyük məsuliyyət qoydu. Eyni paltarı almaq, eyni cür geyinmək məsuliyyəti. Belə olan təqdirdə yuxarıda qeyd etdiyim boşluq illərində varlı-kasıb uşaqlarının geyim fərqi aradan qalxdı. Hər məktəblinin eyni formanı geyinməsi ilə fikir ayrılıqlarına, sənin paltarın, mənim paltarım, məninki daha gözəldir, məndə var, səndə yoxdur kimi söz-söhbətə də son qoyuldu.

Nəticə etibarilə həqiqətən də vahid geyim forması şagirdlərin dərs prosesində fikirlərinin dağılmasına, yersiz söhbətlərə, hətta bir-birləri arasında mübahisələrdən doğan dava-dalaşa, paxıllıq, kiminsə kimə yuxarıdan aşağı baxmaq hissinə son qoydu. Çünki hər kəs məktəbə eyni paltarda, eyni görünüşdə gəldi. Üstəlik valideynin də, müəllimin də, şagirdin də işi asanlaşmış oldu. Valideyn çoxsaylı paltar almaq problemindən, müəllim uşaqlar arasındakı fikir ayrılığından xilas oldu, şagird isə vaxtını geyim müzakirələrindən azad etməklə daha çox dərs prosesinə ayırdı.

## Belə isə müəllimlərin vahid forma geyimi də əlverişli ola bilər

Bu gün müzakirəsi aparılan, lakin çoxsaylı fikir ayrılıqları ilə müşahidə olunan müəllimlərin ümumi geyim məsələsi ilə dünəndən bu günə xeyli xatırlamalar etdik. Nəticə etibarilə çoxları razılaşar ki, müəllimlərin də vahid forma geyinməsi təhsilin inkişafına, təlim-tərbiyəyə fayda verər, nəinki ziyan.

Yuxarıda da qeyd etdiyim kimi, qadın müəllimlərin geyimi hər zaman məktəbli qızların diqqətini cəlb edir, onların müzakirəsinə, özlərini onlara bənzətmək hissinə səbəb olur. Müasir dövrdə hər bir müəllimin də məktəbə uyğun geyinmədiyini nəzərə alsaq, vahid müəllim formasının nəyi pis ola bilər ki?..

Həm də müəllimlər bir sıra problemdən azad ola bilərlər. Müəllim var ki, məktəbə geyinmək üçün xüsusi geyim seçir. Dəfələrlə şahidi olmuşuq ki, müəllim dərziyə gəlir, özünə bir neçə ətək, jilet tikdirir ki, bunu məktəbə-işə geyinə. Və yaxud da geyiminin necə olduğunu nəzərə almayan müəllimlər də var. Belə müəllimlər isə nə istəyirsə, onu da geyinir və məktəbə yollanır.

Şagirdlər isə dediyim kimi, dərsdən çox onların paltarlarının müzakirəsinə vaxt ayırır. Müqayisələr, qiymətvermələr, yaraşdı-yaraşmadı kimi söz-söhbət və sair qız məktəblilərin gündəlik müzakirə mövzusu olur.

Eləcə də müəllimlərin özü də qadın müəllimlərlə öz geyimini müzakirə edir. Və ya qadın müəllimlər birlikdə başqa bir müəllimin geyimi haqqında söhbət edirlər. Kimin yaxşı, kimin pis geyindiyi, kimin zövqlü, kimin zövqsüz, kimin paltarının keyfiyyətli-keyfiyyətsiz olduğu bu müzakirələrin əsas obyekti olur.

Təbii ki, məktəblilər də bu söhbətlərə qarşı qulaqlarına pambıq tıxmır. Həm özlərinin müzakirəsi, həm müəllimlərdən qulaqlarının çaldığı fikirlər təbii ki, məktəbə, təlim-tərbiyə ocağına dəxli olmayan söhbətlərdir. Lakin şagirdlər kimi, müəllimlərin də vahid forma geyinməsi həm onları xeyli maliyyə problemindən, həm hər gün "nə geyinim" kimi vaxt aparan məsələdən və ən əsası bir-birinin paltarını müzakirə etməkdən azad edər.

Ümumi nəticə isə belə ola bilər ki, müəllimlər üçün vahid formaya keçid məktəblərdə ciddiyyəti daha da artırar, müəllim-şagird münasibətlərinə daha da rəsmilik gətirər, təlim-tərbiyyədə yüksək uğur əldə olunar.

Belə isə bu qərarı tətbiq edən məktəbləri təqdir edərək, digər məktəblərdə də müəllimlərin vahid formaya keçəsini görmək arzusunda olan yüzlərlə insanın olduğunu inamla söyləmək olar. Düşünürəm ki, mənim kimi çoxsaylı ziyalı da bu fikirdədir ki, vahid geyim formasının məktəblərimiz, uşaqlarımız, onların təhsili təlim-tərbiyəsi üçün xeyri olar, zərəri yox.

***Mətanət Məmmədova***

# Qayıdış konsepsiyası reallaşır



44 günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olan torpaqlarımız azadlığına qovuşdu. Artıq Qarabağ niskilinə, həsrətinə birdəfəlik son qoyulub. Hazırda bölgədə genişmiqyaslı quruculuq, abadlıq, təmir-tikinti işlərindən sonra insanlar öz doğma yurd-yuvalarına qayıdırlar. Prezidentimiz, Fateh Sərkərdə İlham Əliyevin dediyi kimi, biz Qarabağı cənnətə çevirəcəyik. Əbədi olaraq cənnətə çevrilən yurd yerlərində yaşayacaq və yaradacağıq. Bundan sonra hədəfimiz digər tarixi torpaqlarımıza sahib çıxmaqdır. Hansı ki, hazırda həmin torpaqlar yadelli məkrli qüvvələrin tapdağı altındadır. Xüsusilə də, Qərbi Azərbaycana qayıtmaq və yenidən o möcüzəvi, ezazkar tarixi torpaqlarımızda yaşayışı davam etdirmək bir millət olaq qarşımızda duran vəzifələrdəndir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixi çıxışlarının birində demişdir: "Mən inanıram ki, bizim bölgədə hər şey Azərbaycan xalqının xeyrinə dəyişəcək, xalqımız gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağını, doğma dağlarını, bulaqlarını, çaylarını, ata-babalarının qəbirlərini görəcəkdir. Mən buna heç şübhə etmirəm".

Ulu Öndərimiz Heydər Əliyevin qeyd etdiyi qətiyyətli fikirlər yeddidən yetmiş yeddiyə qədər hər bir azərbaycanlı üçün bir çağırışdır. Bu çağırışa əməl etmək, reallaşdırmaq bizlərin qarşısında duran başlıca vəzifələrdəndir. Müsbət və alqışalayiq hal ondan ibarətdir ki, millət olaraq Dahi Öndərimiz Heydər Əliyevin zamanında irəli sürdüyü ideya və təkliflərinə, verdiyi tövsiyələrə, göstərişlərə xüsusi diqqət ayırır və onların həyata keçməsi üçün var qüvvəmizlə çalışırıq. Artıq görünən ondan ibarətdir ki, Qərbi Azərbaycana qayıdış konsepsiyası reallaşmağa yaxındır. Əsasən də Vaşinqtonda keçirilən yüksək səviyyəli iki və üçtərəfli görüşdən və imzalanan sənədlərdən, səslənən Birgə Bəyannamədən sonra Qərbi Azərbaycana qayıdışa ümidləri daha da artırıb.

## Qərbi Azərbaycanın hər daşında, qayasında, cığırında Azərbaycan xalqına məxsus izləri var

Söz yox ki, tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdış yalnız zor gücünə ev -eşiyindən didərgin salınan azərbaycanlıların öz yurd yerlərinə qayıtmaq arzusu deyil, həm də dövlət siyasətinin və milli kimliyin əsas istiqamətlərindədir. Fateh Sərkərdə, Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan insanlarla görüşündə əminliklə bildirdi ki, soydaşlarımız öz tarixi torpaqları, yurd yerləri olan Qərbi Azərbaycana mütləq qayıdacaqlar: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

İndiki Ermənistanın hər daşında, qayasında, cığırında Azərbaycan xalqına məxsus izləri var. Erməni daşnak quldur dəstələri azərbaycanlılara məxsus yerləri, mədəniyyət nümunələrini, tarixi ərazilərin adlarını dəyişməyə çalışsalar da, istəklərinə nail ola bilməyiblər. Çünki ərazilərin quruluşu, tarixi abidələrin forması, memarlıq nümunələrinin görünüşü tam şəkildə Azərbaycan xalqına məxsusluğunu təsdiqləyir. Savadsız və anlaqsız vəziyyətdə olan erməni toplumu ərazilərə aid nümunələrin, abidələrin üzərindən Azərbaycan əlifbası ilə yazılan sözləri silib, öz əndərəbadi cümlələrini ora yapışdırmaqla tarixi saxtalaşdıra biləcəklərini düşünüblər. Bugünkü müasir texnoloji aparatlarla hansı, ərazinin, abidənin, mədəniyyət nümunələrinin hansı xalqa məxsus olduğunu müəyyənləşdirmək olur. Məhz müasir texnologiyalara əsaslanmaqla xarici elm, mədəniyyət adamları müəyyənləşdiriblər ki, hazırkı Ermənistan ərazisində erməni adı və tarixi ilə əlaqələndirilən minlərlə mədəniyyət nümunəsi, abidələr, yaşayış məskənləri, əslində, Azərbaycana məxsusdur.

Əzəli torpaqlarımızın bir parçası olan İrəvan şəhərində fransız, Amerika, çinli və alman mütəxəssislərinin apardıqları arxeloji qazantılar zamanı aşkarlanan qədim əşyalara əsasən bu şəhər azərbaycanlıların qədim şəhəri olduğu təsdiqlənib. Bir daha sübuta yetirilib ki, İrəvan şəhərində və ətrafında Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar yaşamışlar. Orta əsrlər tarixi mənbələrində şəhərin adı Rəvan xanının adına uyğunlaşdırılıb. Sonradan İrəvan adı ilə əvəzlənib. 1812-ci ildə aparılmış siyahıyaalınmaya görə, İrəvan şəhərinin əhalisinin 93 faizi azərbaycanlılardan ibarət olub. Digər yeddi faizi isə gürcülər, ermənilər və digər millətlərin nümayəndələri olublar. Növbəti dəfə, yəni 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda İrəvanda və Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 rnil, eni isə 100 mildir. O dövrlə bağlı faktlarla çıxış edən erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: "Şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi". İrəvan xanlığında azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı olmuş general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda çara ünvanlandığı məlumatda burada 10 min azərbaycanlı, 234 erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu azərbaycanlıların təşkil etdiyini yazmışdır.




## Xarici hərbi siyasi dəstək hesabına Qərbi Azərbaycanda demoqrafik vəziyyət dəyişdirilib

Azərbaycanın qədim şəhəri olan İrəvan zamanın ağır dövrlərini yaşamışdır. İrəvan xanlığının 1746-cı ildə əsasını qoyan Mir Mehdi xanın hakimiyyəti heç də sakit keçməyib. Ağrı vadisinin və Göycə gölünün ətrafında qurulan İrəvan xanlığı, çox keçmir ki, bölgənin böyük iqtisadi və siyasi qüdrətə malik xanlığına çevrilir. Məhz bu da Gürcüstan, Rusiya və erməni məliklərinin ciddi narahatlığına səbəb olurdu. Onlar İrəvan xanlığını zəiflətmək üçün hər cür təxribatlardan, eləcə də, bölgəyə hücumlar etməkdən çəkinmirdilər. Amma bütün hallarda Mir Mehdi xan qətiyyət göstərir və birləşmiş düşmən qüvvələrini yerlərində oturmağa müvəffəq olurdu. Yüksək hərbi, siyasi təcrübəyə malik Mir Mehdi xan İrəvanı möhkəmləndirmək üçün geniş məhəllələr yaratmış, keçilməz qalalar tikdirmişdir. O dövrün məlumatlarına görə, Mir Mehdi xan İrəvanda 20-yə yaxın məhəllə yaratmışdır. Bu məhəllələri isə naiblər idarə edirdilər. Onlar məhəllələrin inkişafına, əhalinin yaşayışlarının təminatına xüsusi diqqət yetirirdilər. İrəvan xanlığının mərkəzi hərtərəfli sıldırım qayalarla əhatə olunmasına və bununla paralel olaraq Azərbaycan xanlıqları ilə, xüsusilə də, Şəki, Quba xanlıqları ilə dostluq əlaqələri qurmuş düşmənə qarşı birgə müharibə aparmaq haqqında birgə hərbi razılaşma əldə etmişdir. Sonradan İrəvan xanı olan Huseynəli xan Osman sultanı ilə əlaqələr quraraq İrəvan xanlığı ilə Osmanlı imperiyasının şəhərləri arasında iqtisadi-ticarət əlaqələrinin qurulmasına nail olmuşdur. Təəssüf ki, xanlıqda baş qaldıran daxili çəkişmələr Hüseynəli xanın xanlıqla bağlı geniş planlarının həyata keçirilməsinə problemlər yaratmışdır. Daxili çəkişmələrdən yararlanan erməni məlikləri də xanlıq üçün təhlükə mənbəyi olan hücumlar təşkil etmişlər. Xüsusilə də, ermənilər gürcülərdən İrəvan xanlığına qarşı birgə mübarizədə istifadə etməyə çalışmışlar. İrəvan xanlığının ərazisində ermənilərin əsas dini mərkəzlərindən biri olan Eçmiədzin monastırı (Üçkilsə) yerləşmişdir.

Eçmiədzin kilsəsi İrəvan xanlığında çox pozucu rol oynamışdır. Regionda bu kilsə azərbaycanlılara qarşı düşmən mövqe tutmuş və terrorçu dəstələrin hazırlanmasında xüsusi fəallıq göstərmişdir. XVII əsrin 60-cı illərindən başlayaraq Eçmiədzin kilsəsinin katolikosları daim Rusiya imperiyasına müraciət edərək Azərbaycan torpaqlarında erməni dövlətinin yaranmasına yardım etməyi xahiş edirdilər. Bununla yanaşı, erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən KartliKaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Mirmehdi xanın nəvəsi Məhəmməd xanın hakimiyyəti illərində Karte-Kaxetiya tam şəkildə zərərsizləşdirilmişdir. İrəvan xanlığı hücum edərək, Karte-Kaxetiya çarlığının ərazilərini torpaqlarına qatmış, həm də çarlığın başında dayananları məhv edilməsi üçün fəaliyyət göstərmişlər. Lakin Karte-Kaxetiya çarı və ailəsi İrəvan xanlığının ordusunun təqiblərindən qaçaraq Abxaziya xanlığına sığınmışlar. Məhz Karte-Kaxetiya çarlığının sərt zərbə almasından sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur.

Tarix elədir ki, onu dəyişmək və ya fərqli formada təqdim etmək mümkün deyil. Hər məqamda tarixin müəyyən mərhələlərinə dair əsaslı sübutlar üzə çıxacaq. Necə ki, sübuta yetirilir ki, 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı amansız qətliamlar, soyqırımı aktları həyata keçirilib. Sonuncu zorakılıqla müşayət olunan deportasiya siyasəti nəticəsində 300 minə yaxın azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınmışdır. Qərbi Azərbaycan ərazisindən deportasiyaya məruz qalanlardan 255 nəfər vəhşicəsinə qətlə yetirilmiş, minlərlə uşaq, qadın, qoca yaralanmış, on minlərlə ailənin əmlakı talan etmişdir. Nəticədə bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ancaq dövr dəyişib, Azərbaycan öz gücü və qüdrəti hesabını bütün tarixi ədalətsizlikləri aradan qaldırmaqdadır. Yuxarıda qeyd etdiyim kimi Qarabağın işğaldan azad edildiyi kimi bir gün İrəvana və digər Qərbi Azərbaycan torpaqlarına qayıdacağımız gün uzaqda deyil. Bunu dünya azərbaycanlılarının Lideri, Fateh Sərkərdəmiz İlham Əliyevin müdirik siyasəti, xalqımızın birliyi və qətiyyəti deməyə əsas verir.

Bu yaxınlarda Qafqaz Müsəlmanları Ruhani İdarəsi tərəfindən İrəvan şəhərinə qazinin təyin edilməsi və İrəvan qazılığının Əsasnaməsinin qəbul edilməsi Qərbi Azərbaycan qayıdışın çox yaxın zamanlarda reallaşacağına ümidləri artırır. Təbii ki, bundan sonra müsəlman xalqları və dövlətləri mütərəqqi addım ataraq İrəvan qazisi ilə geniş əməkdaşlıq əlaqələri quracaqlar.

Həm də çox yaxın vaxtlarda Naxçıvanla Azərbaycanın Qərb rayonlarını birləşdirəcək Zəngəzur dəhlizi açılacaq. Bununla paralel olaraq Qərbi Azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışı təmin olunacaq və İrəvan qazisi normal fəaliyyətini bərpa edəcək. Bu ümidləri doğruldacaq amillərdən bir də, Azərbaycanın azad, demokratik, hüquqi dövlət olmasıdır.

***İLHAM ƏLİYEV***

# Sülh əvəzinə nifrətin tribunasına çevrilmiş kilsə

## II Qareginin çıxışları erməni xalqını reallıqdan uzaqlaşdırır, regionda sülh və barış imkanlarını məhdudlaşdırır



Əsrlərin dərinliyinə baxdıqda Qafqazda dini institutların yalnız mənəvi rol oynamadığı, bəzən siyasi proseslərin mərkəzinə çevrildiyi açıq görünür. Bu xüsusiyyətin ən çox müzakirə olunan nümunələrindən biri Erməni Apostol Kilsəsidir. Dinin mahiyyəti xalqları mərhəmətə, ədalətə, barışa səsləmək olsa da, regionun mürəkkəb tarixi şəraitində kilsə tribunası həm də ideoloji mobilizasiya aləti rolunu oynayıb. XIX əsrin sonu Qafqaz üçün sosial, iqtisadi və siyasi sarsıntılar dövrü idi. İmperiya siyasəti, köç dalğaları və yeni sosial təbəqələrin meydana çıxması cəmiyyətlər arasında həssas balansı sınağa çəkdi. Belə bir mərhələdə erməni kilsəsinin rəsmi xütbələri və keşişlərin çıxışları dini mesajlarla yanaşı, siyasi çalarlar da qazandı.

### Xütbələrdə nifrət toxumu: XIX əsrin kölgəsi

Kilsə kürsüsü milli identiklik ətrafında səfərbərlik meydanına çevrilərək azərbaycanlılara və türklərə yönələn düşmən obrazını gücləndirdi. Dini mətnlərdə barışın və təmkinin tərbiyəedici gücü önəmli yer tutmalı idi, lakin əksinə, dini rəmzlər siyasətin sərt dilini legitimləşdirən çətir funksiyasını gördü. XX əsrin əvvəllərində baş verən kütləvi iğtişaşlar və silahlı toqquşmalar bu tendensiyanı daha da gücləndirdi. Müharibələr, imperiyaların süqutu və yeni dövlətçilik cəhdləri fonunda kilsənin bir qismi ictimai-siyasi səhnədə təsir dairəsini genişləndirdi. Keşişlər yalnız ibadət məkanlarının rəhbərləri kimi deyil, həm də kütlələrin emosional enerjisini müəyyən istiqamətə yönəldən natiqlər kimi çıxış edərək milli rəqabəti qızışdırdılar.




Sovet dövründə rəsmi sekulyar siyasət kilsələrin açıq siyasi fəaliyyətinə sərt məhdudiyyətlər tətbiq etdi. Lakin bu, dini institutların ictimai təsir imkanlarını tamamilə məhv etmədi. Erməni kilsəsi gizli təsir kanallarını qoruyub saxladı və milliyətçi dairələrlə əməkdaşlıq etməyə davam etdi. Bu, azərbaycanlılara qarşı nifrət hisslərinin sistemli şəkildə ötürülməsinə xidmət etdi və nəticədə iki xalq arasında qarşılıqlı etimad zədələndi.

### Dini lider barışa yox, revanşa çağırır

Müasir dövrdə də bu tendensiya davam edir. II Qareginin fəaliyyəti göstərir ki, erməni kilsəsi hələ də siyasi revanşizm mərkəzinə çevrilib. Katolikos, Birinci və İkinci Qarabağ müharibələri dövründə işğalçı ordunun əsgərlərinə xeyir-dua verməklə dini təsisatın mənəvi gücünü müharibə alətinə çevirirdi. Bu gün isə eyni yanaşmanı radikal revanşist qruplara yönəldir və onları himayə edir. II Qareginin çıxışları yalnız daxili auditoriya ilə məhdudlaşmır; beynəlxalq tədbirlərdə və xarici səfərlərdə də Azərbaycanı qaralamağa çalışır. Bu isə kilsənin müasir dövrdə siyasi manipulyasiyanın mərkəzi rolunu qoruyub saxladığını göstərir.






### Tarixi mərasim yox, siyasi tribuna

I Nikeya Kilsə Məclisinin 1700 illiyinə həsr olunmuş beynəlxalq konfransda da II Qaregin çıxışını siyasi məqsədlərə uyğunlaşdırdı. O, guya "Dağlıq Qarabağda" erməni mədəni və dini irsi dağıdılır, guya Azərbaycan "etnik təmizləmə" həyata keçirir və separatçı qrupların başçıları "əsir" saxlanılır iddialarını səsləndirdi. Halbuki bu iddialar reallığı əks etdirmir: Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yüzlərlə yeni yaşayış məntəqəsi salınıb, məscidlər bərpa edilib, kilsələr qorunub saxlanılır. Şuşadakı kilsənin qorunması bunun bariz nümunəsidir. II Qareginin çıxışı dini rəhbər mövqeyindən çox, siyasi sifarişlə hərəkət etdiyini göstərir.

Katolikosun "lider" adlandırdığı separatçı başçılar isə beynəlxalq hüquq qarşısında cavabdeh şəxslərdir və onların saxlanması qanunauyğun addımdır. II Qareginin ritorikası bu həqiqətləri gizlətmək və Ermənistanın onilliklər boyu davam edən işğalçılıq siyasətini pərdələmək məqsədi daşıyır. O, dini tribunadan siyasi manipulyasiya vasitəsi kimi istifadə edərək erməni xalqını reallıqdan uzaqlaşdırır, regionda sülh və barış imkanlarını məhdudlaşdırır.

Tarixi təcrübə göstərir ki, dini institutlar yalnız mənəvi rəhbərlik funksiyasını yerinə yetirdikdə xalqlar üçün dayanıqlı dəyər mənbəyinə çevrilir. Erməni Apostol Kilsəsinin tarixi və müasir fəaliyyəti isə göstərir ki, dini status siyasi məqsədlər üçün istifadə olunduqda həm institutun nüfuzu, həm də xalqın gələcəyi üçün təhlükəli nəticələr doğurur. II Qareginin çıxışları kilsə tribunalarının revanşist siyasət üçün platformaya çevrildiyini, faktlara söykənməyən iddiaların yayıldığını və cəmiyyətin reallıqdan uzaqlaşdırıldığını göstərir.

### Faktlarla sülh və inkişafa

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı bərpa və yenidənqurma işləri isə faktlara və praqmatik yanaşmaya əsaslanır. Yüzlərlə yaşayış məntəqəsi yenidən qurulur, məscidlər və kilsələr bərpa edilir, tarixi abidələr qorunur. Bu işlər regionda sülhün möhkəmlənməsinə, mənəvi və humanitar baxımdan dayanıqlı inkişafa xidmət edir. Azərbaycanın diplomatik təşəbbüsləri qonşularla və beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirərək etimad mühitini formalaşdırır.

Dini liderlərin və kilsələrin rolu yalnız reallığı təhrif etmək deyil, xalqları barışa, əməkdaşlığa və mənəvi dəyərlərə çağırmaq olmalıdır. Tarixi təcrübə göstərir ki, dini institutların konstruktiv rolu xalqları birləşdirir, stereotipləri zəiflədir və qarşılıqlı hörməti gücləndirir. II Qareginin çıxışları isə bu missiyanı sarsıdır, erməni cəmiyyətini reallıqdan uzaqlaşdırır və gənc nəsli tarixi dərsləri mənimsəməkdə çətinliklə üzləşdirir.

Nəticə olaraq, Ermənistan-Azərbaycan münasibətlərində sülhün və qarşılıqlı anlaşmanın təməlini gücləndirmək üçün dini liderlər həm yerli, həm də beynəlxalq səviyyədə məsuliyyətli mövqe nümayiş etdirməlidir. Xəyallara, qərəzli ritorikaya və revanşist siyasətə əsaslanan çıxışlar yalnız gərginliyi artırır və xalqların gələcək inkişaf imkanlarını məhdudlaşdırır. Azərbaycan isə faktlara, praqmatik addımlara və bərpa işlərinə əsaslanaraq regionda sülh, sabitlik və dayanıqlı inkişaf üçün nümunə göstərir.

Beləliklə, II Qareginin fəaliyyəti və kilsənin tribunasından səslənən siyasi ritorika həm tarixi reallığa, həm də gələcək perspektivlərə qarşı çıxır. Tarix göstərir ki, yalnız sülhsevər, ədalətə və reallığa söykənən siyasət uzunmüddətli uğur gətirə bilər. Kilsə isə bu prosesdə birləşdirici, sabitləşdirici və mənəvi dayağa çevrilməli, cəmiyyəti barışa və əməkdaşlığa çağırmalıdır. Bu missiyanı yerinə yetirən dini institutlar yalnız öz nüfuzunu qoruyur, həm də xalqının gələcəyi üçün konstruktiv təsir yaradır.

***Nigar Orucova***

# Vətən haradan başlayır?

***Hamımızın anadangəlmə, yaradılışdan bir vətəni olur - doğulduğu, böyüdüyü, son nəfəsini aldıqdan sonra əbədi yuxuya getdiyi torpaqlar. Hamımız sevincimizi, kədərimizi o torpaqda yaşayırıq, dərdimizi onunla bölüşür, sevincimizi onunla paylaşır, ruzimizi ondan alırıq. İnsanlar öz kökünü, bir millətə mənsubluq hissini adına vətən dediyimiz torpaqlarda qazanır. Ona görə də insanlar dünyaya gələndən ölənədək vətən üçün yaşayır, vətən üçün çalışırlar. Müharibələr vətən üçün baş verir, qələbələr vətən üçün qazanılır. Vətən sevgisi ata mirası kimi nəsildən nəslə ötürülür, vətən sevdası beləcə müqəddəsləşir.***

Vətən sevgisini dərk etmək üçün ilk növbədə "Vətən nədir?" sualına cavab tapmaq lazımdır. Bu suala keçmişdən bu günə bir çox insanlar tərəfindən müxtəlif cavablar verilib, bir çox dahi bununla bağlı müdrik kəlamlar deyib. Əslində, vətən anlayışı hər kəs üçün fərqli mənalar kəsb edə bilər, lakin bütün yollar bir nəticəyə gətirib çıxarır - Vətən müqəddəsdir.

"Torpaq, uğrunda ölən varsa, vətəndir" deyilməyib boşuna. Bir parça torpağı vətən edən odur ki, onun uğrunda canını fəda edə bilən insanlar var. Ona görə də uğrunda canının veriləbiləcəyi torpaqları vətən kimi ifadə etmək olar. Bununla belə, "Vətən nədir?" suala veriləbiləcək cavablar bunlarla məhdudlaşmır. Vətən hər şeydən əvvəl bir xalq üçün müstəqillik, suverenlik rəmzidir. Çünki heç bir xalq düşmən tapdağı altında olan torpaqda yaşamaq istəmir və yaşaya bilməz. Əslində, vətən elə torpaqdır ki, onu düşmən boyunduruğunda saxlamaq olmaz. Vətən bizim ümumi evimizdir və o evin sahibi yadlar ola bilməz.

Vətən sevgisini mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız bayrağı, danışdığımız dili, həm yaşayıb, həm də yaşatdığımız mədəniyyəti sevmək kimi izah etmək olar.

Əslində, vətən sevgisi sırf sözlə ifadə oluna bilməyəcək bir hissdir. Vətənini sevən hər bir vətəndaş vətəninin şöhrətini yüksəltmək arzusunda olmalı və bu yolda çalışmalıdır. Yəni vətən sevgisi doğma yurdumuzda əmin-amanlıq, firavanlıq, əmin-amanlıq, sabitlik şəraitində yaşamaq üçün çalışmaq tələb edir.

Vətənpərvərlik təkcə indiki zamana dair hiss və düşüncələrimizlə deyil, həm də gələcək üçün hisslərimiz, ideallarımız və məsuliyyətlərimizlə əlaqəli bir anlayışdır. Bu kontekstdə gələcək nəsillərə miras qoyacağımız vətən sevgisi, onlarda vətən sevgisini aşılamaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də vətən sevgisi təkcə keçmişdə yaşamış əcdadlarımıza, bu torpaqlar uğrunda vuruşmuş görkəmli Azərbaycan sərkərdələrinə, Vətən müharibələrində şəhid olmuş oğullara minnətdarlıq borcu deyil, həm də gələcəkdə vətənin əmanət ediləcəyi gənclərə qalmalı olan müqəddəs bir mirasdır.

Qəlbi vətən sevgisi ilə dolu olan insanlar vətəninə, millətinə faydalı olmaq arzusu ilə özlərini inkişaf etdirir, peşəsini mükəmməl şəkildə icra edir. Vətənini, millətini sevən insanların qəlblərindəki sevgi bəşəriyyət üçün faydalı olmağı prioritet edir. Əslində, vətənini sevən bir insan dünyanı sevir, ölkəsində sülh olmağını istəyən insanlar dünyada sülhü arzulayır. Azərbaycanın şanlı tarixinin vətən sevgisi ilə dolu insanların göstərdiyi qəhrəmanlıq və fədakarlıqlarla zəngin olması da bizim şansımızdır. Əsrlər boyu bu torpaqlarda yaşayan insanların bir idealı olub, o da vətən sevgisi. Tariximiz boyu yadellilərə qarşı döyüşən böyük sərkərdələrin yolu ilə addımlayan qəhrəman Azərbaycan xalqı üçün vətənpərvərlik həyat tərzinə çevrilib.

Qəlbi vətən sevgisi ilə dolu olan xalqımızın fədakar övladları yüz illər əvvəl olduğu kimi bu gün də vətənlərini qorumaq üçün hər cür fədakarlıq edirlər. I və II Qarabağ müharibələrində qəhrəmanlıq edən, şücaət göstərən, şəhidlik zirvəsinə yüksələn oğullarımızı da bu yola vətən sevgisi, yurd sevdası sövq etdi.

Nəticə etibarı ilə vətən sevgisi, xəmirində müqəddəslik və mənəviyyat olan xüsusi bir məfhumdur. Mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız üçrəngli bayrağı, danışdığımız dili qorumaq üçün hər birimiz səfərbərik. Minillərin sınağından keçən vətənpərvərliyimiz bizim həyat tərzimiz, yaşam standartımızdır. Buna görə də qloballaşan dünyada, dəyərlərin, mənəviyyatın getdikcə yox çıxdığı cahanda gələcək nəsillərin bu ruhda yetişdirilməsi vətənpərvərliyin tələbidir. Unutmaq olmaz ki, qəlbi vətən sevgisi ilə dolu olan insanlar təkcə öz ölkəsi üçün deyil, həm də dünya üçün faydalıdırlar.

***Lalə Mehralı***



*AYDINLIQ GƏTİRİLDİ*

# "Turist məmnuniyyətinin artırılmasında səmimi yanaşma mühüm rol oynayır"

"Qonaqpərvərlik mədəniyyəti, turizm sektorunda çox mühüm əhəmiyyətə malikdir". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib. Ceyhun Aşurov sözlərinə belə davam edib: "Burada təkcə ölkənin hər hansı bir mədəni və ya tarixi abidələrinin mövcudluğu, restoran və otellərinin olması kifayət deyil. Eyni zamanda göstərilən xidmətin düzgün və keyfiyyətli olması, qonaqpərvərliyin nümayiş etdirilməsi, insanların səmimiyyəti, yerli əhalinin turizmə münasibəti və turistlərə yanaşması da böyük rol oynayır. Bütün bunlar turistlərdə müsbət təəssürat yaradır və məhz bu qonaqpərvərlik ruhu insanlarda dərin iz buraxır. Əgər bir ölkədə qonaqpərvərlik güclüdürsə, həmin ölkə turizm sahəsində daha çox inkişaf edə, daha çox turist cəlb edə və göstərilən xidmətlərlə qonaqları razı sala bilər.





Turist məmnuniyyətinin artırılmasında qonaqpərvərlik, səmimi və doğru yanaşma mühüm rol oynayır. Turistlərin gözlədiyi standart xidmətin üzərində göstərilən diqqət və münasibət onlarda müsbət təəssürat yaradır. Bu isə nəticə etibarilə ağızdan-ağıza reklamın yayılmasına, həmin məkanın tanınmasına və gələcəkdə daha çox turistin həmin destinasiyanı seçməsinə səbəb olur.

Ənənəvi və müasir yanaşmalar turizmdə həmişə diqqət mərkəzindədir. Nə qədər sənaye inkişaf etsə də, yeni texnologiyaların tətbiqi və müəyyən standartların qoyulması baş versə də, lokal təcrübələrin doğru şəkildə təqdim olunması mühüm əhəmiyyət kəsb edir. Çünki ölkəyə və ya hər hansı bir icmaya gələn turist ilk növbədə həmin icmanı, yerli insanları hiss etmək istəyir. Turistlərin bir çoxu yerli insanların qidasını, gündəlik həyatında istifadə etdiyi məhsulları, yaşayış şəraitini bilmək və yaşamaq istəyir. Yəni nə qədər müasirlik gəlsə də, lokal və özünəməxsus xüsusiyyətlər hər zaman turistlərin diqqətini cəlb edir.

İlkin olaraq qeyd etmək lazımdır ki, turizm sənayesi təkcə hər hansı bir məkanda tarixi abidələrin və müxtəlif infrastrukturun mövcudluğu ilə deyil, eyni zamanda orada göstərilən səmimi xidmətin əsasında formalaşır. Bu isə turistlərin məmnunluğunu artırır və gələcəkdə həmin əraziyə daha çox turistin gəlməsinə şərait yaradır".

***Günel Fərzəliyeva***

# Fransanın batan "gəmisi"...

***Sentyabrın 8-də Fransanın baş naziri Fransua Bayru etimad görməyəcəyinə əmin olaraq hökumətinə etimad məsələsini Milli Assambleya qarşısında qaldırıb. Və belə də oldu - dörd saatdan çox müzakirələrdən sonra Emmanuel Makronun ikinci dövründə üçüncü hökumət istefaya göndərildi. Çərşənbə axşamı Fransua Bayru istefa məktubunu prezidentə təqdim etdi.***



Fransua Bayrou Milli Assambleyanın tribunasına çıxaraq deyib: "Cənab deputatlar, sizin hökuməti devirmək səlahiyyətiniz var, amma reallığı ləğv etmək səlahiyyətiniz yoxdur". Onun üçün reallıq ölkənin borcudur: "dözülməz", "daha çətin və daha bahalı". Baş nazir ölkəni xilas etmək üçün həmvətənlərini fədakarlıq etməyə inandırmaq cəhdindən əl çəkmək istəməyib.

"Onlar mənə deyirlər: siz çox tələsirsiniz, gəmi hələ də sudadır, sərnişinləri və ekipajı narahat etməyin", - Fransua Bayrou izah edib. "Ancaq gəmini xilas etmək istəyiriksə, gecikmədən hərəkətə keçməliyik".

"Fransa 51 ildir ki, balanslaşdırılmış büdcəyə malik deyil", - o, təkrar edib. Müharibə vaxtı idi və o, hərbi metaforaya əl atdı: "Silahların əsarətində və ya kreditorlarımızın əsarətində - hər iki halda biz azadlığımızı itirəcəyik". Fransua Bayrou tribunada qırx dəqiqə qalmalı olub - ya tamaşaçılara çatmaq







üçün əbəs cəhdlə, ya da hamı üçün nə düşündüyünü söyləməyə tələsib.

Yəqin ki, o, özü və hökuməti üçün hər şeyin bitdiyini anlayıb və açıq-aşkar məhvə məhkum edilmiş proqramının müzakirəsi zamanı şallaqdan qaçmaq istəyib. Sonda ölkəni kəsirdən xilas etmək üçün təkliflərini təkrarlamağa belə ehtiyac qalmayıb.

Baş nazirin çıxışından sonra müxalifət fraksiyalarının liderləri çıxışa başlayıblar. Rəqiblər heç bir söz demədən ona düşündüklərini söylədilər. Sollar mərkəzçi Bayrunu çox sağçı, sağçılar isə çox solçu olduğuna görə tənqid edirdilər. Eyni zamanda, çıxış edənlərin hər biri Bayrunun hər şeyin başladığı proqramına əhəmiyyət vermədi, sanki daha danışacaq bir şey yox idi. Mərhələ keçdi - indi hökumətin süqutundan sonra nələrin və kimin olacağını müzakirə edirlər.

Sol tərəfi sosialistlərin başçısı Boris Vallot təmsil edib, o, Fransua Bayrunu adi insanlara qarşı qəddarlıq etdiyinə görə teatral şəkildə lənətləyib, Hüqondan sitat gətirib, əllərini ovuşdurub və prezident Makronun təslim olub hakimiyyəti sola təhvil verməli olduğunu iddia edib.

Sağçı Respublikaçıların rəhbəri Loran Vaukez isə əksinə, Fransua Bayrunu parazitləri qidalandırmaqdan yorulan "işləyən Fransa" ilə yarı yolda görüşməməkdə ittiham edib. "İşləyən fransalıların iki bayram gününü kəsməkdənsə, ümumiyyətlə işləməyən və müavinətlə dolananlar üçün 365 bayram gününü kəsmək daha yaxşı olardı.

Laurent Wauquiez ifrat solçu və hər şeydən əvvəl "France Insoumise" lideri Jean-Luc M?lenchonu xaos və inqilab axtarmaqda günahlandırdı və respublikaçıların hətta bir M?lenchon tərəfdarı olan bir hökumətə dözməyəcəkləri barədə xəbərdarlıq etdi. Bununla belə, o, blokunun digər üzvlərini ondan nümunə götürməyə məcbur etmədən, Fransua Bayruya səs verməyə çağırıb.

Prezident koalisiyası adından danışan Qabriel Attal proqnozlaşdırılan şəkildə bəyan edib ki, sabitlik naminə hökumət qorunmalıdır. Onun fikrincə, istefa vaxt itkisi və xaosdan başqa heç nə gətirməyəcək. Yaxşı olardı ki, növbəti prezident seçkilərinə qədər 18 ay müddətinə "ümumi maraqlara uyğun müqavilə" bağlansın.

Marin Le Pen, "Milli Mitinq" (RN) tərəfdarları adından Baş nazir Bayrunun "həqiqət anı" ilə bağlı mantrasını təkrarladı, lakin ondan fərqli olaraq, bunda çoxdan gözlənilən "xəyal hökumətinin əzabının sonunu" gördü. O, Nazirlər Kabinetinin acınacaqlı sona çatmasında və ölkənin maliyyə vəziyyətində hər kəsi günahlandırıb: "Sağ və solun liderləri, siz günahkarsınız". O, prezidentin siyasətini və ölkənin büdcəsini müdafiə edə biləcək yeni baş nazirin seçiləcəyinə inanmadığını bildirib. Buna görə də RN parlament qrupunun sədri Milli Məclisin yeni buraxılmasını tələb edib və bunu "millətin ali mənafeyi" hesab edir. Aydındır ki, "millətin ali marağı" onun parlament çoxluğunu qazanması deməkdir. Belə olan halda Marin Le Pen "Milli Mitinq"dən baş nazir təyin etməklə təkcə parlamenti deyil, hökuməti də ələ keçirməyə hazırdır. Amfiteatrın o biri ucundan parlamentdəki "Ənsiz Fransa" qrupunun lideri Mathilde Panno ona cavab verdi.

Baş nazir və prezidenti varlıları zənginləşdirməkdə, yoxsulları isə yoxsullaşdırmaqda, qlobal istiləşmədə və Qəzzada müharibədə günahlandıran xanım Panno Fransua Bayrunu tez bir zamanda istefaya getməyə və Emmanuel Makronu özü ilə aparmağa çağırıb. "Xalq səbirsizdir" deyə o, çıxışını yekunlaşdırdı. Baş nazirin özü bu nəticəyə görə əvvəlcədən istefa vermiş kimi görünürdü. Həftə ərzində o, dəfələrlə tərəfləri "bir-biri ilə vətəndaş müharibəsi" aparmaqda, eyni zamanda "hökuməti devirmək" üçün həvəslə birləşməkdə ittiham edib. Sonda hökumətə etimadın əleyhinə 364 deputat, lehinə isə 194 deputat səs verib. Parlamentarilərin qərarı avtomatik olaraq kabinetin istefası ilə nəticələnir. Fransua Bayrou istefa ərizəsini çərşənbə axşamı səhər saat səkkizdə təqdim etmək niyyətindədir və həmin saatdan etibarən Fransada hər şey yenidən başlayacaq.

## Yeni təyinat nə vaxt olacaq?

Fransada prezidentin hökumət başçısını təyin etmək səlahiyyəti var. Eyni zamanda, Milli Məclis istənilən vaxt hökumətə etimadsızlıq votutu verə bilər. Emmanuel Makron yaxın günlərdə yeni baş nazir postuna kimin keçəcəyini açıqlayacaq. Bu məlumatı bazar ertəsi, sentyabrın 8-i axşam Le Figaro yayıb. Makron sentyabrın 8-də Fransua Bayru hökumətinə etimadsızlıq səsverməsi keçirən Fransa Milli Assambleyasının qərarını "qeyd etdi". Yelisey sarayının kommünikesində yeni hökumət başçısının rəsmi təyinatının tezliklə həyata keçiriləcəyi bildirilib. "Prezident yaxın günlərdə yeni baş naziri təyin edəcək", - Yelisey sarayının kommünikesində deyilir.

Çərşənbə axşamı prezident Makron və Fransua Bayru arasında görüş planlaşdırılır və onun istefasının bütün hökumətlə birlikdə qəbul ediləcəyi gözlənilir. Fransua Bayrou 2024-cü ilin dekabrında baş nazir vəzifəsini tutdu, lakin onun hökuməti səlahiyyət müddəti başlayandan bəri əhəmiyyətli siyasi çətinliklərlə üzləşdi. Bütün əvvəlki Fransa kabinetləri kimi, onun hakimiyyəti də parlamentdəki dəstəyə bağlı idi: Milli Assambleya istənilən vaxt etimadsızlıq elan etmək hüququna malikdir.

Bu il Fransa hökuməti ilə bağlı vəziyyət kifayət qədər qeyri-sabitdir. 2024-cü ilin sentyabrında işə başlayan Mişel Barnierin başçılıq etdiyi nazirlər kabineti dekabr ayına qədər cəmi üç ay işləyib, sonra o da istefa verib.

2024-cü ilin iyununda keçirilən növbədənkənar parlament seçkilərindən sonra ölkədə siyasi atmosfer daha da gərginləşib. Makronun bu qərarı geniş rezonans doğurub və seçkilərdə üçüncü yeri tutan ifrat sağçı Milli Ralli partiyasının populyarlığını cilovlamağa yönəlib. Prezident koalisiyası qalib gələn solçu Yeni Xalq Cəbhəsi blokundan sonra ikinci yerdə qərarlaşıb. Nəticələrə baxmayaraq, üç əsas siyasi qüvvədən heç biri parlament çoxluğu əldə edə bilmədi ki, bu da siyasi qeyri-sabitliyə şərait yaratdı və hökumətin işini xeyli çətinləşdirdi.

Xatırladaq ki, Fransa parlamentariləri baş nazir Fransua Bayru və hökumətinin istefasına səs veriblər. Bu qərar ölkəni yeni siyasi böhrana sürükləyir. Əvvəllər Zelenskinin Ukrayna üçün təhlükəsizlik təminatlarını müzakirə etmək istəyənlər Koalisiyasının sammitində iştirak etmək üçün Parisə gəldiyini yazmışdıq.

***V.VƏLİYEV***

# Dünyanı təhdid edən terrorizm

*3 minə yaxın vətəndaşın ölümü ilə nəticələnən 11 sentyabr terroru*

***Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağılın, idrakın sivil nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər.***

Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. 2001-ci 11 sentyabr hadisələrindən artıq 24 il ötür. 24 il bundan əvvəl dünya yeni bir facia ilə üz-üzə gəldi. Terrorun ən müdhiş formalarından biri Amerikanın Nyu-York şəhərində baş verdi. XXI əsrin başlanğıcında baş vermiş bu hadisə terrorun yeni bir mərhələyə daxil olduğunu göstərdi. 2001-ci ilin sentyabrın 11-də Əl-Qaidə terror təşkilatı tərəfindən ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərindəki hədəflərə qarşı həyata keçirilən terror aktları terorizmin iç üzünü bir daha dünyaya göstərdi. "American Airlines" (Amerika hava yolları) şirkətinə məxsus sərnişin təyyarəsi Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı. Daha sonra isə Cənub qülləsi bənzər hücuma məruz qaldı. Binaların aşmasına səbəb baş vermiş güclü yanğınlar idi.

Mənbələrdə də qeyd olunduğu kimi, bu hücumun əsas məqsədi sadəcə binalar, hətta bina və təyyarələrdəki minlərlə günahsız qurbandan daha böyük bir şey idi. Ən yaxın fiziki hədəflər Pentaqonun bir hissəsi, aşağı Manhetten və 4 təyyarə idi. Dünya Ticarət Mərkəzi bir zamanlar dünyanın ən hündür binası sayılan məşhur Əkiz Qüllələrin də daxil olduğu aşağı Manhettendə yerləşən 7 binadan ibarətdir. Müstəqil blokda yerləşən Bina 7 də daxil olmaqla 7 binadan ibarət kompleksə 2001-ci il sentyabrın 11-də çox ağır zərbə vuruldu. Dünyanın ən böyük ofis binası sayılan Pentaqon Amerika Birləşmiş Ştatlarının ürəyi hesab edilir. 11 sentyabr hücumlarında binanın 10 hissəsindən biri zərər gördü. Geriyə qalan mənzərə isə misli görülməmiş bir dəhşətdir. 11 nömrəli sərnişin təyyarəsinin Şimal qülləsinin 95-ci mərtəbəsi ilə toqquşması nəticəsində yaranan qəza 92-ci mərtəbədən yuxarıda olan insanlara zərər verdi. Qəza bölgəsi olan mərtəbələr tüstü ilə dolduqca insanlar tullanmağa başladılar. Təmiz havada 10 saniyə yaşamaq zəhərli tüstünü ciyərlərə çəkərək ağır və dözülməz ölümdən əziyyət çəkməkdən daha yaxşı idi. Çoxlu sayda insan ilk öncə Cənub qülləsinin partlayışına şahidlik etdi. Bu hadisələr 3 minə yaxın sadə vətəndaşın ölümü, 6 mindən çox insanın yaralanması ilə nəticələndi.

2001-ci ilin 11 sentyabr hadisələri göstərdi ki, dünyanın ən yüksək inkişaf etmiş və ən böyük hərbi gücə malik ölkəsi olan ABŞ-da dəhşətli terror törədildi. Minlərlə insan bu terrorun qurbanı oldu. Və bu terrorda yeni bir metoddan istifadə olundu, hava nəqliyyatından mülki və hərbi xarakterli ictimai-siyasi əhəmiyyət daşıyan obyektlərə zərbələr endirildi. 11 sentyabr terroruna ilk reaksiya verən dövlətlərdən biri Azərbaycan olmuşdur.

## DÜNYANIN ƏN TANINMIŞ TERROR TƏŞKİLATLARI

Azərbaycan da zaman-zaman terrordan əziyyət çəkən dövlət olub. Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Terrorçuluq cinayətkarlığın ən təhlükəli formalarından biridir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması formasıdır. Tarixdən bəllidir ki, 1883-cü ildə İrəvan şəhərinin 18. 766 nəfər əhalisinin 15. 992 nəfəri, 1866-cı ildə isə 27. 246 nəfərindən 23. 626



nəfəri, yəni 85,2 % azərbaycanlı olmuşdur. Böyük Ermənistan yaratmaq xülyasında olan ermənilərin həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Tarixdə heç bir dövlətçiliyi olmayan ermənilər zaman-zaman xalqımıza qarşı terror aktları törədiblər. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi şovinistlərinin davamlı olaraq etnik təmizləmə, ağlasığmaz terror aktlarına və soyqırımı siyasətinə məruz qalmış, günahsız insanlar, qocalar, uşaqlar, hətta, hamilə qadınlar insanlığa sığmayan amansızlıqla, qəddarlıqla qətlə yetirilmişdir. Təəssüf ki, hələ də nüfuzlu beynəlxalq qurumlar və qüdrətli dövlətlər erməni terror təşkilatlarının törətdikləri vandal aktlara ciddi münasibət bildirməmiş, terrorizmə qarşı mübarizədə həmrəylik nümayiş etdirməmişlər.

Dünyanın ən tanınmış terror təşkilatları sırasında Ermənistanın ASALA terror təşkilatının da yer aldığı hamıya bəllidir. ASALA, MAQ, "Erməni İttifaqı", "Erməni Azadlıq Cəbhəsi" terror təşkilatları ilə yanaşı, "Armenakan", "Hnçak", "Daşnaksütun" partiyalarının da proqramının əsasını terrorizm, terror üsulları təşkil edir. XIX əsrin sonları və XX əsrdə bu və digər erməni terror təşkilatları Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmiş, on minlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetirmiş və ya ömürlük şikəst qalmalarına səbəb olmuşlar.

## YUXARI DAİRƏLƏRDƏN SUİ-QƏSD SİFARİŞ

1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən Ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. Tarixi mənbələrə hər dəfə nəzər saldıqda dəhşətli faktlar insanı susdurur. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. İllər uzunu ölkəmizin dəmək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Vurğulamaq yerinə düşər ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verib və həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılıb. Bu, erməni özbaşnalığı, erməni saxtakarlığıdır. Tarixi ədalət hər zaman bərpa olunur. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki, "Xankəndi" adı bərpa edilib.

## ERMƏNİPƏRƏST QÜVVƏLƏRİN HİMAYƏÇİLƏRİNİN ƏMƏLLƏRİ

Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçimişdilər. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi, Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-cü km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir.

## ŞUŞANIN XƏLFƏLİ KƏNDİ - 41 SƏRNİŞİN VƏ 3 EKİPAJ ÜZVÜ

1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əkseriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Xatırladaq ki, hadisədən iki ay əvvəl - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər həlak olmuşdular. Həlak olanların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdu. İnsan tələfatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrordan Azərbaycan əziyyət çəkən dövlətlər sırasındadır.

## KONVENSİYALARIN KOBUD ŞƏKİLDƏ POZULMASI

Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də. qoca da bu terrorların acı nəticəsini yaşamış oldu. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermiş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verirdi. Bütün olayları dəqiqliklə işıqlandıran KİV-lər Azərbaycanın haqlı mövqeyinə göz yuma bilmirdilər. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür.

***Zümrüd BAYRAMOVA***

# Valentina Çebotaryeva: Biz İvanovka məhsullarının bütün ölkəyə çatdırılmasını təşkil etmək istəyirik

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*



***Valentina Çebotaryevanın 20 yaşı var. O, Azərbaycanın ən məşhur molokan (rus) kəndlərindən birində - ölkənin şimal-qərbinin səfalı guşələrindən birində - İsmayıllı rayonunda yerləşən İvanovkada doğulub boya-başa çatıb. Valentina dəyişiklikdən qorxmur və həmişə irəli getməyə hazırdır. Bu yaxınlarda Valentina İvanovkanın tam mərkəzində tikilmiş yeni otelin direktoru oldu. "Moskva-Baku" portalına müsahibə verən Valentina Çebotaryeva İvanovkadakı həyatdan və onun böyük mehriban ailəsindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Valentina, siz İvanovkada doğulub boya-başa çatmısınız. Ailəniz haqqında bizə məlumat verin. Azərbaycanın məşhur molokan kəndində həyat necədir?***

- Burada həyat yaxşıdır. İvanovkada müxtəlif millətlərin və dinlərin nümayəndələri yaşayır. Müsəlmanlar, molokanlar, baptistlər, pravoslavlar. Ailəmizdə 7uşaq var. Mən ikincisiyəm. Böyük qardaşım Nikolayın 22 yaşı var, "Aqro Qurama"da mühəndis işləyir, kiçik bacım Diananın isə 2 yaşı var. Atam Sergey Nikolayeviç də "Aqro Qurama"da işləyir. Anam Natalya Vladimirovna evə və uşaqlara baxır. Biz mehriban ailəyik, çox yaxınıq, həmişə bir-birimizə dəstək oluruq. Biz bacılar, ev işlərində anamıza kömək edirik, kiçik uşaqlara baxırıq. Qardaşlarım və atam evdə kişi işləri görür. Məktəbdən sonra Bakıda dizayner ixtisası üzrə təhsil almaq istəyirdim, amma həyat başqa istiqamətə çəkdi.

Mən Krasnodarda xor rəhbərlərini - kilsə gənclər xorunun rəhbərlərini- hazırlanması üçün təşkil olunan kursa daxil oldum. Təhsilimi bitirib evə qayıtdım. Bakıda mühasibatlıq kursları oxudum və bir neçə ay Azərbaycan paytaxtında təcrübə keçdim. Sonra Salehardda baptist könüllülər hərəkatı haqqında öyrəndim. Onlara yazdım və onlar mənə Rusiyanın Uzaq Şimalına - Yamalo-Nenetskiy Muxtar Dairəsinə getmək üçün öz könüllü dəstələrinə qoşulmağı təklif etdilər. Avqustdan oktyabr ayına qədər 3 ay ərzində biz tundranı gəzirdik, çatmaq çətin olan yaşayış məntəqələrinə ərzaq və paltar çatdırırdıq. Soyuq olsa da, inanılmaz dərəcədə maraqlı idi- sentyabrda artıq mənfi 20 idi! Cənublu kimi mənim üçün soyuğa uyğunlaşmaq kifayət qədər çətin idi, amma bacardım. Dayanacaqlarda uşaqlarla göbələk və giləmeyvə yığdığımı, odda yemək bişirdiyimizi xatırlayıram. Hamı dost oldu. Bu, əsl həyat məktəbi idi! Sibiri o qədər bəyəndim ki, hətta birdəfəlik ora getmək istədim. İvanovkaya qayıtdıqdan sonra lazımi sənədləri toplamağa başladım, amma gözlənilmədən məni doğma kəndimdəki yeni "Maqnoliya" mehmanxanasına işə dəvət etdilər. Mənə özümü direktor kimi sınamağı təklif etdilər. Təbii ki, dərhal razılaşdım.



***- 20 yaşında otel direktoru olmaq böyük məsuliyyətdir. Onun öhdəsindən gələ bilərsinizmi?***




- Etiraf edirəm, əvvəlcə asan olmadı. Otel təzədir, cəmi 3 ay əvvəl açılıb və mən otel biznesinə yeni başlayanam. Amma təcrübəli həmkarlar mənə kömək edir, hər gün praktikada öyrənirəm. Düşünürəm ki, gənclik sizə yeni şeyləri daha tez qavramağa kömək edir. 14 otağımız və 4 kottecimiz var, yaxınlıqda "İvan" restoranı var - rahat yerdir. Bu yaxınlarda il boyu fəaliyyət göstərəcək bir SPA zonası açıldı. Xüsusilə yay-qış aylarında turistlər çox olur, çünki İvanovka təbii məhsulları ilə məşhurdur. İnsanlar tez-tez bura İvanovka məhsulları üçün gəlirlər. Onların istehsalında bizim ailə də iştirak edir: kimsə yağ, pendir, kəsmik hazırlayır, kimsə arıçılıqla məşğuldur. Turistlərin çoxu da əcnəbidir, onlar ivanovkalıların necə yaşadığını görmək, onların adət-ənənələri ilə tanış olmaq üçün gəlirlər.




***- Ailəniz haqqında danışın. Deyəsən çox isti münasibətiniz var!***

- Bəli, bizim böyük və mehriban Çebotaryevlər ailəmiz var. Biz ümumi süfrəyə toplaşanda 40 nəfərdən çox oluruq, bu hələ hamısı deyil - bəzi qohumlar şəhərə köçüb. Mənim babam və nənəm də İvanovkada yaşayır. Atam tərəfdən babam Nikolay Viktoroviç Çebotaryev çəkməçidir, yüksək keyfiyyətli ayaqqabı tikir. Yeri gəlmişkən, o da çoxuşaqlı ailədəndir - 7 oğul və 1 qız. Nənəm Qalina Nikolayevna təqaüddədir. Anam tərəfdən babam Vladimir Nikolayeviç Uvarov mexanik, nənəm Valentina Matveyevna isə uzun müddət keçmiş Nikitin kolxozunun idarəsində işləyib. Səbəbsiz yerə yığışmağı, ünsiyyət qurmağı, xəbər paylaşmağı xoşlayırıq. Bu bizim üçün vacibdir.

***- Baptist olduğunuzu qeyd etdiniz. İnancınız həyatınıza necə təsir edir?***

- Mən mömინəm. Hər bazar günü mən və ailəm xidmət üçün yerli kilsəyə gedirik. Mənim üçün iman, ailə kimi, həyatın əsasını təşkil edir, qərarlar qəbul etməyə və çətinliklərin öhdəsindən gəlməyə kömək edir. Nə qədər çətin vəziyyətdə olsam da, bilirəm ki, Rəbb bizə gücümüzə uyğun imtahan verir. Saleharda getmək qərarına gələndə anam əvvəlcə narahat olsa da, valideynlərim məni dəstəklədilər. Onlar mənə dedilər: "Get, bu o deməkdir ki, Allahın sənin üçün öz planları var!"

İman mənə Allahın planına etibar etməyi öyrədir. Gələcək həyat yoldaşımın da inanclı olmasını və mənim dəyərlərimi bölüşməsini istəyirəm. Yeri gəlmişkən, bu il Baptistlərin Qara dənizdə yerləşən Beliy adasına səyahəti planlaşdırılır və mən də könüllülərə qoşulmaq istəyirəm. İşlə birləşdirə bilsəm, mütləq ora gedəcəm. Mən macəraları sevirəm və çətin şərtlərdən qorxmuram.

***- İvanovkada gənclər vaxtlarını necə keçirirlər? Onlar üçün maraqlı bir şey varmı?***

- Düzünü desəm, İvanovka gənclər üçün bir az darıxdırıcıdır. Bir çox insan daha böyük imkanlar üçün Bakıya getməyə çalışır. Amma biz kəndi dirçəltməyə çalışırıq: diskoteka təşkil edirik, yeni fəaliyyətlər planlaşdırırıq. Məsələn, uşaq meydançasının və göl kənarında istirahət zonasının açılması ilə biz daha çox gəncin cəlb olunmasına ümid edirik. İstəyirəm ki, İvanovka təkcə turistlər üçün deyil, yerli əhali üçün də maraqlı olan yerə çevrilsin.

***- Valentina, gələcəyinizi necə görürsünüz?***

- Mən təbiətcə optimistəm. İnanıram ki, qaranlıq bir zolaqdan sonra həmişə işıqlı bir zolaq gəlir. Hər şey Allahın əlindədir və hiss edirəm ki, O, mənə yol göstərir. Həyatda baş verən hər şey təsadüfi deyil. Həyatda ümumiyyətlə qəza yoxdur. Məktəbdə oxuyarkən mamaça və ya dizayner olmaq arzusunda idim, amma otel direktoru oldum. Belə alındı. Yeri gəlmişkən, mən dizaynla da məşğulam, özümü inkişaf etdirirəm - otelin reklamı ilə məşğul oluram. Uşaqlarla mənim də İvanovka məhsullarının bütün Azərbaycan üzrə çatdırılması xidmətini təşkil etmək fikrimiz var. Bu əla olardı! Mən yeni imkanlara açığım və hər şeyin lazım olduğu kimi alınacağına inanıram.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
11 sentyabr
2025-ci il

# "Formula-1" yarışları ölkəmiz üçün həm də böyük tanıtımdır



""Formula-1" yarışlarının Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə tanınmasında və müasir imicinin formalaşdırılmasında mühüm rol oynayır. İlk növbədə, bu yarış idman baxımından ölkəmizə böyük faydalar gətirir". Bu sözləri SİA-ya açıqlamasında idman şərhçisi, Azərbaycanın əməkdar jurnalisti Fikrət Adıgözəlli deyib. Onun sözlərinə görə, dünyanın ən populyar və izlənilən idman növlərindən biri olan "Formula-1" milyonlarla tamaşaçını cəlb edir. Bu, həm yerli gənclərin idmana marağını artırır, həm də Azərbaycanı qlobal idman xəritəsində önə çıxarır: "Belə mötəbər yarışlara ev sahibliyi etmək ölkədə idman infrastrukturunun inkişafını sürətləndirir, turizmi stimullaşdırır və ölkəmizdə keçirilən digər beynəlxalq turnirlərə də bir növ zəmin yaradır. Siyasi və strateji baxımdan isə "Formula-1"in Bakıda təşkil olunması Azərbaycanın dünyaya açıq, modern və qlobal inteqrasiyaya can atan dövlət olduğunu nümayiş etdirir. Bu yarışların keçirilməsi sayəsində ölkəmiz regionda sabitlik və təhlükəsizlik adası kimi tanınır, çünki belə miqyaslı tədbirlərin təşkilinə etimad yalnız etibarlı və güclü dövlətlərə göstərilir. Bundan əlavə, Formula-1 kimi qlobal tədbirlər vasitəsilə Azərbaycan öz mədəniyyətini, tarixini və turizm potensialını dünyaya təqdim etmək imkanı qazanır.

Ümumilikdə, "Formula-1" yarışları ölkəmiz üçün təkcə idman hadisəsi deyil, həm də diplomatik, iqtisadi və mədəni baxımdan çoxşaxəli üstünlüklər gətirən bir platformadır.

*Ziya Hikmətoğlu*

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# UEFA Cüneyt Çakırı "Qarabağ"ın oyununa göndərdi



Türkiyənin FIFA dərəcəli keçmiş hakimi Cüneyt Çakır "Qarabağ"ın UEFA Çempionlar Liqasının əsas mərhələsinin ilk turunda keçirəcəyi oyuna təyinat alıb. Hazırda Gürcüstan Futbol Federasiyasında Hakimlər Komitəsinin sədri vəzifəsində çalışan keçmiş referi Ağdam klubunun Portuqaliyada "Benfika"ya qarşı oynayacağı matçın hakim-inspektoru olacaq.

O, ötən mövsüm Azərbaycan çempionunun UEFA Avropa Liqasının əsas mərhələsində Bakıda Fransanın "Lion" komandasına qarşı keçirdiyi matçda da eyni funksiyasını yerinə yetirmişdi.

Qeyd edək ki, sentyabrın 16-da Lissabonda təşkil ediləcək "Benfika" - "Qarabağ" görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Skuter qəzaları durmadan artır - nə tədbir görülməlidir?



Son zamanlarda xüsusilə paytaxt Bakıda skuterdən istifadə edənlərin sayı getdikcə artır. Lakin bu maraq öz bərabərində qəzaların da çoxalmasına səbəb olur. Maraqlıdır, görəsən, bu cür qəzaların qarşısının alınması üçün hansı tədbirlər görülməlidir? Məsələ ilə bağlı nəqliyyat eksperti Aslan Əsədov SİA-ya açıqlamasında bildirib ki, skuterlərin şəhər həyatında geniş şəkildə istifadə olunması həm müsbət, həm də mənfi təsirlər doğurur:

"Onların ekologiyaya dost olması, nəqliyyatın yüklənməsinin qarşısını alması və rahat hərəkət imkanı yaratması bu nəqliyyat vasitələrinin üstünlüklərindəndir. Lakin bununla yanaşı, skuterlərin düzgün istifadə olunmaması cəmiyyətdə narahatlığa səbəb olur ki, bu da əsasən onların idarəetmə qaydalarına riayət edilməməsi ilə bağlıdır. Xüsusilə insanların sıx toplaşdığı ərazilərdə - parklar, piyada səkiləri, alış-veriş mərkəzlərinin ətrafı kimi yerlərdə skuterlərlə sürətlə hərəkət etmək təhlükəli və məsuliyyətsiz davranışdır. Bu tip yerlərdə sükunət və təhlükəsizlik vacib olduğundan, səssiz və sürətli hərəkət edən skuterlər qəfil ortaya çıxdıqda, piyadalar üçün ciddi risk yarada bilər. Bu həm yaşlı insanlar, həm də uşaqlar üçün daha da təhlükəlidir.

Problemin əsas səbəblərindən biri də skuterdən istifadə edən şəxslərin bir çoxunun nəqliyyat vasitəsini oyuncaq kimi görməsi, yol hərəkəti qaydalarını nəzərə almamasıdır. Halbuki skuterlər də digər nəqliyyat vasitələri kimi məsuliyyət tələb edir. İstifadəçilər sürətə nəzarət etməli, təhlükəsizlik qaydalarına riayət etməli, digər yol hərəkəti iştirakçılarını da nəzərə almalıdırlar".

*Arzu Qurbanlı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**